

Milli azadlıqdan şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

20 fevral 2025-ci il, cümə axşamı № 031 (6859) Qiyməti 60 qəpik


# Xocalı şəhərini bərpa etmək bizim ən başlıca borcumuz idi...

## Prezident Xankəndi və Xocalıda



Bax səh. 2

## AĞDAM: BİR QALA-KOMPLEKS LAYİHƏSİ!

Bax səh. 3

## Azərbaycan idmanının inkişafında yeni mərhələ

Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) yeni rəhbər heyəti müəyyənləşib. MOK-un fevralın 18-də keçirilən IX Hesabat-seçki baş məclisində Azərbaycan Prezidenti İlham Əliyev yenidən növbəti 4 il müddətinə Milli Olimpiya Komitəsinin prezidenti seçilib. Baş məclisdə, həmçinin İcraiyyə Komitəsinin və Təftiş Komissiyasının üzvlüyünə də seçkilər keçirilib. Prezident İlham Əliyev, eyni zamanda, Azər Əliyev, Çingiz Hüseynzadə, Zemfira Meftahətdinova, Fərid Mansurov, Elnur Məmmədli, Faiq Qarayev, Alla Həsənova, Nazim Hüseynov və Namiq Abdullayev MOK-un İcraiyyə Komitəsinin üzvləri seçiliblər.

**Yüksək səviyyədə doğrulan ümidlər**

Prezident İlham Əliyevin yenidən MOK-un prezidenti seçilməsi təsadüfi deyil. Bu seçimin arxasında Onun qurumun rəhbəri kimi çalışdığı illərdə ölkənin idman ictimaiyyətinin etimadını yüksək səviyyədə doğrultması amili dayanır. İlham Əliyev MOK-un prezidenti vəzifəsinə ilk dəfə 1997-ci il 31 iyul tarixində seçilib. Həmin tarixədək İlham Əliyevin müxtəlif sahələrdə qazandığı uğurlar idman ictimaiyyətində belə bir yüksək inam formalaşdırmışdı ki, məhz O, Azərbaycan idmanını yeni uğurlara daşıyacaq. Öz növbəsində İlham Əliyev Ona bəslənən ümidləri yüksək səviyyədə doğruldub.

1992-ci ildə yaradılan Milli Olimpiya Komitəsinin ötən dövrdəki fəaliyyətinə nəzər saldıqda keçilən yolu fərqli mərhələlərə bölə bilərik. Müstəqilliyimizin ilk illərində ölkədə digər sahələr kimi, idman da, necə...

Bax səh. 3

## Bakıda mühüm tədbir...



Bax səh. 4

## Azərbaycan regionun iqtisadi coğrafiyasını zənginləşdirir

Bax səh. 5

## Əmək bazarının rəqəmsallaşması...

Bax səh. 5

## Danışıqlar üçün ideal ölkə...

Bax səh. 6

## "OPEK+" formatı genişlənir

Bax səh. 5

## Xəzər sahillərində unikal iqtisadi məkan

Mavi Xəzərin Azərbaycan sahillərində unikal iqtisadi məkan yaradılır. Söhbət Ələt Azad İqtisadi Zonasından (ƏAİZ) gedir. 2023-cü il 9 iyun tarixində Prezident İlham Əliyevin iştirakı ilə Azad İqtisadi Zonanın birinci mərhələsinin açılış mərasimi baş tutub.

Hazırda Ələtdə karqo hava limanının inşası da uğurla davam etdirilir. Bu barədə Ələt Azad İqtisadi Zonası Səlahiyyətli Qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov bildirib. "Bu hava limanı Azərbaycanın iqtisadiyyatı və qonşu ölkələr üçün mühüm üstünlüklər yaradacaq. Eləcə də geniş xidmətlər göstərəcək", - deyə qurum rəsmisi vurğulayıb.

V. Ələsgərov qeyd edib ki, 2026-cı ildə tamamlanacaq layihə çərçivəsində hava limanı 750 hektardan çox ərazini əhatə edəcək. İlkin mərhələdə hava limanının illik 500 min ton yükdaşıma gücünə malik olması nəzərdə tutulur. Növbəti mərhələdə isə bu göstəricinin 1,5 milyon tona çatdırılması planlaşdırılır.

**Azad İqtisadi Zonanın yüksək cəlbediciliyi**

Dünya praktikasına nəzər saldıqda görürük ki, hər bir iqtisadi zonanın uğurlu fəaliyyəti və yüksək cəlbediciliyi üçün bir sıra mühəm şərtlər təmin edilməlidir. Son illərdə Azərbaycanın Avrasiyanın əsas nəqliyyat hablarından birinə çevrilməsi Ələtdə yaradılan Azad İqtisadi Zonanın cəlbediciliyini artıran çox vacib amildir. Ölkə ərazisindən keçən Şərq-Qərb və Şimal-Cənub marşrutları üzrə yaradılan müasir infrastruktur açıq dənizə çıxışı olmayan Azərbaycanın regionda mühüm tranzit ölkəyə çevrilməsini təmin edib. Bu gün...

Bax səh. 4



## Ər-Riyad görüşü: birinci raund başa çatdı

Bax səh. 6

# Xocalı şəhərini bərpa etmək bizim ən başlıca borcumuz idi...

## Prezident Xankəndi və Xocalıda





**Xankəndi**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Xankəndi şəhərində əsaslı təmir və bərpadan sonra "Bulud" hotelinin açılışında iştirak edib.

AZƏRTAC bildirir ki, Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına görülən işlər barədə məlumat verib.

Ümumi sahəsi 5325 kvadratmetr olan hotel beş mərtəbədən ibarətdir. Hoteldə 45 nömrə var və 91 qonaq qəbul edə biləcək. Müasir iaşə məkanlarının yaradıldığı hoteldə "Lobby lounge", kafe, açıq və qapalı restoranlar fəaliyyət göstərəcək.

Hoteldə 50 nəfər işlə təmin olunub.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərimiz tarixi-mədəni abidələrlə yanaşı, füsunkar təbiətə, yeraltı və yerüstü sərvətlərə, geniş turizm imkanlarına malikdir. Bölgədə müalicəvi turizm, istirahət turizmi, ekoturizm və turizmin digər növlərinin inkişaf etdirilməsi üçün böyük imkanlar var. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda nəzərdə tutulan əsas prioritetlərdən biri də məhz bu bölgədə turizmin müxtəlif növlərinin inkişafı üçün zəruri təminatların yaradılmasıdır. Artıq son illər bu istiqamətdə genişmiqyaslı işlər görülür. Füzuli və Zəngilanda yaradılan, Laçında tikintisi davam edən beynəlxalq hava limanları, inşa olunan müasir hotellər və həyata keçirilən digər infrastruktur layihələri azad olunan ərazilərimizin turizm potensialının reallaşmasında, turistlərin bu bölgələrə cəlb edilməsində mühüm rol oynayacaq.

***

Prezident İlham Əliyev Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan Xankəndi tikiş fabrikinin fəaliyyəti ilə tanış olub.

Dövlətimizin başçısına istehsal müəssisəsi barədə məlumat verilib.

Qeyd edək ki, ərazisi 1,2 hektar olan fabrikin inşası Azərbaycan və Özbəkistan arasında iqtisadi və investisiya əməkdaşlığının dərinləşdirilməsinə dair iki ölkə prezidentlərinin tapşırıqlarına əsasən həyata keçirilib. Layihənin ümumi investisiya dəyəri 11 milyon manat təşkil edir. İndiyədək 5,5 milyon manat investisiya qoyulub. Fabrikin xammal tədarükü üçün birgə sənaye əməkdaşlığı həyata keçirilir. Həmçinin fabrik tam gücü ilə işlədikdən sonra yerli pambıq xammalı əsasında parça toxunması üçün istehsal sahəsinin yaradılması nəzərdə tutulur.

Ümumilikdə burada 800 iş yeri yaradılacaq. Layihənin ilkin mərhələsi üzrə peşəkar təlim almış 300 nəfər hazırda işlə təmin olunub. Müəssisədə əsasən işğaldan azad edilmiş ərazilərə qayıdan və ətraf rayonlarda yaşayan vətəndaşların məşğulluğuna xüsusi diqqət yetirilib.

Müəssisə fəaliyyətə başlayandan bəri 50 minə yaxın idman köynəyi istehsal edilib. Bu il 924 min ədəd köynək istehsalı planlaşdırılır. Gələcəkdə isə Xankəndi tikiş fabrikində ildə 3-5 milyon ədəd müxtəlif trikotaj məhsulları istehsal edilməsi nəzərdə tutulur. Fabrikdə istehsal olunacaq məhsullar müxtəlif ölkələrə də ixrac ediləcək.

Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan Xankəndi tikiş fabriki yüngül sənayenin inkişafı üçün yeni imkanlar açır və ölkələrimiz arasında ənənəvi dostluq, qardaşlıq, iqtisadi tərəfdaşlıq əlaqələrini möhkəmləndirir.

Xatırladaq ki, ötən ilin noyabrında Bakıda keçirilən COP29 tədbiri zamanı Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən videobağlantı vasitəsilə Xankəndi tikiş fabrikinin açılışı olub.

***

Azərbaycan Prezidenti Xankəndi şəhərində Zəfər parkının təməlqoyma mərasimində iştirak edib.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına parkda görüləcək işlər barədə ətraflı məlumat verib.

Xankəndi şəhərində Zəfər parkının salınması məqsədilə 12,9 hektar ərazidə söküntü işlərinin aparılması nəzərdə tutulub. Ərazi şərti olaraq iki hissəyə bölünüb və 8,3 hektar sahəsi olan birinci hissədə söküntü işləri artıq yekunlaşıb. İkinci hissə isə 4,6 hektar ərazini əhatə edir. Burada da söküntü işləri aparılacaq.

Ərazidəki mövcud ağacların qorunması məqsədilə aidiyyəti təşkilatlarla birgə baxış keçirilib və müxtəlif növ 262 ağac müəyyən edilib. Bundan başqa, parkın ərazisində 21 növ üzrə 300-dən çox ağacın əkilməsi nəzərdə tutulur.

Hazırda ərazidə planlaşdırma işləri görülür.

Prezident İlham Əliyev Xankəndi şəhərində Zəfər parkının təməlini qoydu.

Qeyd edək ki, ölkəmizdə yaradılan Zəfər parkları xalqımızın Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın, qazandığı möhtəşəm tarixi Qələbənin, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasının rəmzidir.

Ölkəmizin müxtəlif bölgələrində, o cümlədən Xankəndi şəhərində yaradılacaq Zəfər parkı tarixi Qələbəmizin yaddaşlarda yaşadılması, yaradılmış qəhrəmanlıq nümunələrinin əbədiləşdirilməsi, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması üçün mühüm əhəmiyyətə malikdir. Zəfər parkı Azərbaycanın gücünü, xalqımızın əzmini və azərbaycanlıların Vətən torpağına olan bağlılığını göstərən bir məkandır.

## Xocalının Ballıca kəndinə həyat qayıdıb...





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Xocalı rayonunun Ballıca kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub, sonra kəndə köçən bir qrup sakinlə görüşüb.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

-İki aydır ki, Ballıca kəndində keçmiş köçkünlər yaşayır. Mən bu gün burada bir neçə keçmiş köçkünlə görüşmüşəm, ev şəraitinə baxmışam. Şadam ki, uzun fasilədən sonra Ballıca kəndinə də artıq həyat qayıdıb. Keçmiş köçkünlər indi demək olar ki, hər ay hissə-hissə, qrup-qrup öz dədə-baba torpaqlarına qayıdırlar. Böyük Qayıdış Proqramı icra edilir. Demək olar ki, vaxtilə işğal altında olan bütün torpaqlar bərpa edilir. Dünən Ağdam rayonunda gedən quruculuq-bərpa işləri ilə tanış olmuşam. Bu gün buradayam. Eyni zamanda, Xankəndidə də olmuşam, orada da gözəl işlər görülür, yeni iş yerləri, yeni müəssisələr yaradılır. Mənim Sərəncamımla Qarabağ Universiteti yaradılmışdır. Orada mindən çox tələbə oxuyur. Orta məktəblər, tibb məntəqələri inşa olunur. Yəni, həyat üçün nə lazımdırsa, hər şeyi edirik, həm şəhərləri, həm də kəndləri bərpa edirik.

Ballıca kəndinin də bərpası artıq son mərhələdədir. Mənə verilən məlumata görə, 137 ev artıq bərpa edilib və 60-a yaxın ev hələ bərpa olunacaq. Ballıcada artıq 460 keçmiş köçkün yerləşib. Evləri bərpa etmişik, kənd təsərrüfatı ilə məşğul olmaq üçün imkanlar yaxşıdır, torpaq münbitdir, hava da təmizdir. Bütün Qarabağ bölgəsi, Şərqi Zəngəzur bölgəsi dirçəlir və hər gün biz bunu əyani şəkildə görürük.



Əlbəttə ki, Vətən həsrəti ilə yaşamış insanlar üçün ən yaxşı şəraiti yaratmaq dövlətimizin borcudur. Mənim də Prezident kimi əsas borcum bu gün bundan ibarətdir. İşğala son qoyduq, 2023-cü ildə antiterror əməliyyatı nəticəsində bu bölgəni də işğaldan azad etdik. Ballıca və yüzlərlə digər yaşayış məntəqəsi artıq işğalçılardan tam azad olunmuşdur və indi həyatı bərpa edirik. Yəni, hər şeyi mərhələli yollarla edirik, öz gücümüzlə, bizə heç kim kömək etmir. Ancaq öz imkanlarımız daxilində, öz gücümüzə arxalanaraq, Azərbaycan xalqının imkanlarına arxalanaraq, dövlət hesabına bütün bərpa-quruculuq işləri aparılır, özü də qısa müddət ərzində.

İndi İkinci Qarabağ müharibəsindən dörd il keçibdir, baxın nə qədər böyük işlər görüldü, hər yerdə, təkcə Xocalı rayonunda yox. Halbuki Xocalı şəhərini bərpa etmək bizim ən başlıca borcumuz idi. Çünki müharibədən və işğaldan, Birinci Qarabağ müharibəsinin çətin vəziyyətindən əziyyət çəkən ən çox elə xocalılılar olmuşdur, onlara qarşı soyqırımı törədilmişdi. Ona görə Xocalını azad etmək hər zaman gündəlikdə duran məsələ idi. İkinci Qarabağ müharibəsi 2020-ci il noyabrın 10-da dayanandan sonra yenə də bütün köçkünlər bilirdilər ki, Xocalı azad olunmayana qədər biz işimizi bitmiş hesab etməyəcəyik. Nəinki Xocalı, Xankəndi də, Ağdərə, Xocavənd və Əsgəran rayonları da işğalçılardan tam azad edildi. Yüzlərlə kənd artıq öz sahiblərini gözləyir.

Ballıca kəndi bərpa etdiyimiz və keçmiş köçkünlərin qayıtdığı 10-cu yaşayış məntəqəsidir. Yəni, bu, Böyük Qayıdış Proqramının birinci mərhələsinə aiddir. Artıq burada, yenə də deyirəm, 500-ə yaxın insan yaşayır. Həm o vaxt bu bölgədə yaşayan vətəndaşlar, eyni zamanda, onların uşaqları, nəvələri, nəticələri qayıdıblar. Bu, bir daha onu göstərir ki, xalqımız öz torpağına nə qədər bağlıdır. Bu gün bölgəni, bu yerləri görməyən balaca uşaqlar, yaxud da ki, gənc insanlar həvəslə qayıdırlar, işləyirlər, qururlar, yaradırlar. Öz torpaqlarına qayıdan keçmiş köçkünlərlə çoxsaylı görüşlər əsnasında həmişə gənclərdən soruşuram ki, siz darıxmırsınız burada? Deyirlər, yox, darıxmırıq. Çünki doğma Vətən, doğma torpaq bizi çəkir və bu, bir daha xalqımızın nə qədər yüksək mənəvi keyfiyyətlərə malik olduğunu göstərir.

Mən sizi təbrik edirəm. Yenə də deyirəm, artıq iki aydır ki, siz burada mərhələli yollarla məskunlaşırsınız, dekabrın 13-dən başlayaraq bu günə qədər. Hələ ki, proses davam edir. Hələ bərpa ediləsi evlər var, onları da bərpa edəcəyik. Burada insanlar rahat, təhlükəsiz və xoşbəxt yaşamalıdırlar. Bunun üçün Azərbaycan dövləti bundan sonra da hər şeyi edəcəkdir. Bir daha sizi təbrik edirəm.

Sakinlər yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər.

***

Sonra xatirə şəkli çəkdirildi.

# Azərbaycan idmanının inkişafında yeni mərhələ




**Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) yeni rəhbər heyəti müəyyənləşib. MOK-un fevralın 18-də keçirilən IX Hesabat-seçki baş məclisində Azərbaycan Prezidenti İlham Əliyev yenidən növbəti 4 il müddətinə Milli Olimpiya Komitəsinin prezidenti seçilib. Baş məclisdə, həmçinin İcraiyyə Komitəsinin və Təftiş Komissiyasının üzvlüyünə də seçkilər keçirilib. Prezident İlham Əliyev, eyni zamanda, Azər Əliyev, Çingiz Hüseynzadə, Zemfira Meftahətdinova, Fərid Mansurov, Elnur Məmmədli, Faiq Qarayev, Alla Həsənova, Nazim Hüseynov və Namiq Abdullayev MOK-un İcraiyyə Komitəsinin üzvləri seçiliblər.**

## Yüksək səviyyədə doğrulan ümidlər

Prezident İlham Əliyevin yenidən MOK-un prezidenti seçilməsi təsadüfi deyil. Bu seçimin arxasında Onun qurumun rəhbəri kimi çalışdığı illərdə ölkənin idman ictimaiyyətinin etimadını yüksək səviyyədə doğrultması amili dayanır. İlham Əliyev MOK-un prezidenti vəzifəsinə ilk dəfə 1997-ci il 31 iyul tarixində seçilib. Həmin tarixədək İlham Əliyevin müxtəlif sahələrdə qazandığı uğurlar idman ictimaiyyətində belə bir yüksək inam formalaşdırmışdı ki, məhz O, Azərbaycan idmanını yeni uğurlara daşıyacaq. Öz növbəsində İlham Əliyev Ona bəslənən ümidləri yüksək səviyyədə doğruldub.

1992-ci ildə yaradılan Milli Olimpiya Komitəsinin ötən dövrdəki fəaliyyətinə nəzər saldıqda keçilən yolu fərqli mərhələlərə bölə bilərik. Müstəqilliyimizin ilk illərində ölkədə digər sahələr kimi, idman da, necə deyərlər, gözdən-könüldən uzaq düşmüşdü. Belə ögey münasibət öz növbəsində idmançılarda ruh düşkünlüyü yaradırdı.

İlham Əliyevin MOK-un prezidenti seçilməsindən sonra qurumun fəaliyyətində yeni mərhələ başladı. MOK-un yeni rəhbərinin milli təəssübkeşliyi, perspektivli idmançılara böyük qayğı ilə yanaşması, klubların, federasiyaların maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir idman infrastrukturunun qurulması, Bakının qəsəbələrində və regionlarda İdman-Olimpiya komplekslərinin inşası bütövlükdə ölkənin idman həyatında yüksəliş dalğası yaradıb.

## Dünya idman ictimaiyyətinin artan inamı

Bütün ölkə üzrə müasir idman infrastrukturunun qurulmasının, müxtəlif idman növləri üzrə beynəlxalq səviyyəli yarışlara qatılan gənclərimizin sayının artmasının və onların müxtəlif turnirləri qələbə ilə başa vurmalarının məntiqi nəticəsi olaraq dünya idman ictimaiyyətinin respublikamıza böyük inamı yaranıb. Təkcə belə bir faktı vurğulamaq yerinə düşər ki, son illərdə ölkəmizdə Avropa və Dünya çempionatlarının keçirilməsi adi hala çevrilib. 2015-ci ilin yayında Azərbaycan Birinci Avropa Oyunlarının keçirilməsində çox yüksək standartlar müəyyənləşdirdi. Respublikamız bütün dünyada məşhur olan və böyük tamaşaçı auditoriyasına malik "Formula-1" yarışlarına uğurla ev sahibliyi edir. 2017-ci ilin birinci yarısında ölkəmizdə İslam Həmrəyliyi Oyunları keçirilib.

Ümumiyyətlə, respublikamızda keçirilən və keçiriləcək mötəbər beynəlxalq yarışların siyahısı kifayət qədər uzundur. 2025-ci ildə ölkəmiz daha bir mötəbər turnirə - III MDB Oyunlarına ev sahibliyi edəcək. Prezident İlham Əliyevin imzaladığı müvafiq sərəncam əsasında 2025-ci ilin oktyabr ayında Azərbaycanda III MDB Oyunlarının keçirilməsi üzrə Təşkilat Komitəsi yaradılıb və hazırda Oyunlara hazırlıq işləri cədvəl üzrə davam etdirilir.

## Hesabat dövrünün böyük uğurları

Baş məclisdə MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə qurumun 2022-2024-cü illərdəki fəaliyyəti haqqında hesabat-məruzə ilə çıxış edib. O, iqtisadi və digər sahələrdə inkişaf sürətinə görə regionun lider dövləti olan Azərbaycanın bütün dünyada idman ölkəsi kimi tanındığını bildirib.

Çingiz Hüseynzadə hesabat dövründə Azərbaycanın idman tarixində bir sıra uğurlu hadisələrin baş verdiyini diqqətə çatdıraraq, MOK-un gördüyü işlərin miqyasına görə çox əhatəli olduğunu, əldə edilmiş nailiyyətlərin həm keyfiyyətinə, həm də kəmiyyətinə görə yüksək səviyyəyə qalxdığını qeyd edib.

"Azərbaycanın ictimai-siyasi həyatının bütün sahələrindəki inkişafının əsası dövlət başçısının uzaqgörən siyasətinin nəticəsi olduğu kimi, Olimpiya Hərəkatı və idmandakı uğurlarımız da Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin adı ilə bağlıdır. Hesabat dövründə ölkəmizin Olimpiya və idman həyatında bir sıra olduqca əlamətdar tarixi hadisələr baş verib. Azərbaycan Parisdə keçirilmiş Yay Olimpiya Oyunlarında qazanılmış 7 (2 qızıl, 2 gümüş, 3 bürünc) medalla ümumi komanda hesabında 30-cu yeri tutub", - deyə Çingiz Hüseynzadə bildirib.

*Mübariz ABDULLAYEV*

# AĞDAM: BİR QALA-KOMPLEKS LAYİHƏSİ!

Ağdam Azərbaycanın ən çox dağıntıya, vandalizmə məruz qalan ərazisi idi. 1993-cü il, iyulun 23-də işğal ediləndən bu yana şəhəri xarabazara çevirmək üçün əllərindən gələn heç nəyi əsirgəməmişdi erməni vandalları. Rayonun yaşayış məntəqələrini talayıb, darmadağın edib, tarixi, mədəni, dini abidələri, qəbiristanlıqları yerlə bir etmişdilər. Təsadüfi deyil ki, 2001-ci ildə işğal altında olan ərazilərə səfər edən məşhur amerikalı jurnalist və yazıçı Tomas de Vaal dağıdılmış məscidin minarəsindən ətrafı ziyarət edərkən dağıntıların miqyasına görə, Ağdamı 1945-ci ildə ABŞ-ın atom bombası nəticəsində dağılmış Yaponiyanın Xirosima şəhərinə bənzətmişdi. Bundan sonra Ağdamı simvolik olaraq, "Qafqazın Xirosiması" adlandıranlar da vardı.

2020-ci il, noyabrın 23-də işğaldan azad olunandan sonra ilk dəfə Ağdam məscidində olan Prezident İlham Əliyevin çıxışını xatırlayıram: "Bu gün Ağdam şəhərini dağılmış vəziyyətdə görmək çox ağrılıdır. Amma mən bir neçə il bundan əvvəl bu bölgədə olarkən, bizim səngərlərdə olarkən, o binanı binoklla görmüşəm. Bu hissləri sözlə ifadə etmək çətindir, mümkün deyil. Öz torpağımızda öz şəhərimizi, bax, o binanı binoklla uzaqdan görmək, buraya gələ bilməmək nə qədər ağrılı idi. Dəfələrlə təmas xəttində olarkən, səngərlərdə olarkən, fikirləşirdim ki, gün gələcək biz qayıdacağıq, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik".







Və hər zaman olduğu kimi, Prezidentin çıxışındakı ümidlə dolu məqamlar, quruculuq işləri ilə bağlı əsası qoyulmuş planlar, gələcəyin cızılmış yol xəritəsi! Bu xəritədə Ağdamın yeni obrazının, yeni görkəminin də yeri və müstəsnalığı boy verirdi: "Ağdam yenidən bərpa ediləcək Azərbaycanın ən gözəl şəhərləri sırasında olacaq. İndi Ağdam üçün yeni dövr başlayır. Bizim böyük planlarımız var. Biz bu torpaqları, bu şəhərləri, bu kəndləri bərpa edəcəyik. Ağdam rayonu yenidən Azərbaycanın ən zəngin, mədəniyyətin, aqrar sənayenin, kənd təsərrüfatının gur inkişaf etdiyi rayonlarından birinə çevriləcək".

Doğrudan da, ötən beş ilə yaxın müddət ərzində Ağdam şəhərinin bərpası üçün baş plan hazırlandı, bura mütəxəssislər cəlb olundu, infrastruktur layihələri planlı şəkildə icra edilməyə başlanıldı, inzibati binalar, sosial obyektlər, yollar və digər quruculuq işləri üçün hazırlıqlara başlandı. Ötən illərdə Cənab Prezidentin göstərişilə Ağdam rayonunun mərkəzinə çevrilmiş Quzanlı qəsəbəsində sosial obyektlər, infrastruktur və sənaye müəssisələri, insanlar üçün iş yerləri yaradıldı, böyük Olimpiya İdman Kompleksi, xəstəxana, məktəblər, Muğam Mərkəzi inşa edildi. Ötən gün, fevralın 18-də Prezidentin Ağdama səfəri də vaxtında atılmış addımlara yenidən dönüş, görülən işlərlə bağlı verilən hesabat məqamı idi.

Bir haşiyə çıxım. 2020-ci il, noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva işğaldan azad olunan Ağdama ilk səfərlərini Ağdam məscidindən başlamışdılar. Onlar Ağdam məscidini ziyarət etmiş, Prezident İlham Əliyev Məkkədən gətirdiyi "Qurani-Kərim"i Ağdam məscidinə bağışlamışdır. Bu, təkcə torpaqlarımıza deyil, həm də dəyərlərimizə qayıdışın ruhsal-mənəvi baxımdan bəyanı idi.

Fevralın 18-də gerçəkləşən səfər çoxyönlü bərpa-tikinti işlərinə yenidən nəzər yetirməklə bərabər, ümumən fəaliyyətin qlobal səciyyəsini meydana qoyurdu. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın "Hilton Garden İnn" hotelində aparılan tikinti işləri ilə, "Ağdam Residence" yaşayış kompleksində yaradılan şəraitlə, 1268 mənzilli 2-ci yaşayış kompleksində mövcud tikinti işləri ilə, Əsgəran qala-kompleksinin konsepsiya layihəsi, Ağdam şəhər 1 nömrəli tam orta məktəb, 1 nömrəli körpələr evi-uşaq bağçasında, Ağdam Muğam Mərkəzində görülən tikinti işləri ilə tanışlığı, "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin açılışında iştirakı bir daha göstərir ki, Qarabağın bütün regionlarında aparılan genişmiqyaslı bərpa və quruculuq işlərinə Prezidentin şəxsən özü nəzarət edir. Həm də təklif və əlavələriylə, modern baxış və qeydləri ilə. Bu mənada, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın azad edilmiş rayonlara hər səfəri aparılan yenidənqurma işlərinə yeni töhfələr vermək deməkdir. Bu töhfələr hər səfər zamanı regionun dirçəlməsi üçün ən vacib infrastruktur layihələrinin icrası, tarixi-mədəni, dini abidələrin bərpası, növbəti təməlqoyma mərasimlərinin əsasının qoyulması deməkdir. Müxtəlif tikinti işləri ilə tanışlıq göstərir ki, qarşıda böyük strateji hədəflər var. Bu hədəflər xalqın o torpaqlarda rahat yaşayışından tutmuş məktəb, təhsil, mədəniyyət təminină qədər bütün sahələri əhatə eləyir.



Nəqliyyat sisteminin fasiləsiz fəaliyyəti üçün yolların çəkilməsi, telekommunikasiya şəbəkələrinin qurulması, elektrik, su, istilik və qaz təchizatının təmin edilməsi prioritet istiqamətlərdən olduğu kimi, Muğam Mərkəzi, Əsgəran qalasının inşası, uşaq bağçası, körpələr evi, məktəb binalarının tikintisinə qədər bütün humanitar məsələlər, ruhsal-mənəvi ehtiyacların ödənilməsini çevrələyən işlər də bizim üçün eyni səviyyədə önəm daşıyan məsələlərdir.

Bəli, Böyük Qayıdışa addım-addım yaxınlaşırıq. Biz digər yurd yerlərimizə olduğu kimi, Ağdama da qayıdırıq, böyük quruculuq işləri, mədəniyyət və mənəviyyat qalalarımızın bərpası, tikintisi ilə. İlham Əliyev hər addımda bir ibrətli məqamı görk edirdir: torpağı qurub-yaratmadınsa, əkib-becərmədinsə, onu qorumağa dəymez. Şükürlər olsun ki, bu gün öz torpaqlarımızda qurub-yaradan da, əkib-becərən də özümüzük, onu göz-bəbəyi kimi qorumağa bütün canı, qanı ilə birlikdə atılan da.



***ELNARƏ AKİMOVA***
*Milli Məclisin deputatı, filologiya elmləri doktoru*

# Bakıda mühüm tədbir...

## Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyası keçirilib

Fevralın 19-da Azərbaycanın sədrliyi ilə Milli Məclisin inzibati binasında Asiya Parlament Assambleyasının (APA) "Asiyada çoxtərəfli əməkdaşlığın gücləndirilməsində parlament diplomatiyasının rolu" mövzusuna həsr edilmiş 15-ci plenar sessiyasının açılış mərasimi keçirilib. 35 nümayəndə heyətinin, o cümlədən, ümumilikdə 280 nəfərə yaxın nümayəndənin iştirak etdiyi tədbirdə bir sıra məsələlər müzakirə olunub. APA Asiya parlamentlərini birləşdirən mühüm parlament diplomatiyası platforması olmaqla yanaşı, bu cür tədbirlər həm də üzv ölkələrin qanunverici orqanları arasında müzakirələrin və dialoqun inkişafına xidmət edir.

Açılış mərasimində çıxış edən Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, bir il əvvəl, Azərbaycan parlamenti Asiya Parlament Assambleyasına sədrliyi öz üzərinə götürüb. "Sədrliyimiz çərçivəsində birgə fəaliyyətimizin daha da gücləndirilməsi üçün APA-nın institusional potensialının inkişaf etdirilməsi, üzvlük sıralarımızın genişləndirilməsi, mövcud qurumların fəaliyyətinin canlandırılması və səmərəliliyinin artırılması kimi bir sıra prioritetlər irəli sürdük",- deyə spiker qeyd edib. S.Qafarova əlavə edib ki, ötən ilin diqqət bir nailiyyəti APA Bürosunun iclaslarının aktivləşdirilməsi olub.

Spiker diqqətə çatdırıb ki, beynəlxalq siyasətdəki vəziyyəti və dünyada mövcud durumu nəzərə alsaq, çoxtərəfli əməkdaşlıq məsələsi heç vaxt bu gün olduğu qədər vacib olmayıb. Onun sözlərinə görə, dünyamızın qarşılaşdığı humanitar böhranlar, münaqişələr, yoxsulluq, iqlim dəyişikliyi, ayrı-seçkiliyin, irqçiliyin, ksenofobiyanın və islamofobiyanın artması kimi problemlər və onlarla necə mübarizə aparmaq məsələsi qaçılmaz şəkildə müasir beynəlxalq münasibətlər sisteminin səmərəliliyi məsələsini ön plana çıxarır. Təəssüf ki, bu gün dünya daha parçalanmış və daha az dinc hala gəlib. Və bir çoxları çoxtərəfli mexanizmlərin səmərəsizliyi barədə müzakirələr aparır.

S.Qafarova deyib ki, beynəlxalq hüququn bütün norma və prinsiplərinə, eləcə də beynəlxalq təşkilatların qətnamə və qərarlarına baxmayaraq, beynəlxalq səviyyədə tanınmış ərazilərі 30 il ərzində qonşu Ermənistan tərəfindən işğal altında saxlanılmış Azərbaycan, təəssüf ki, bugünkü sistemin səmərəsizliyinin əsas qurbanlarından biri olub: "Ölkəmiz öz torpaqlarını azad edərək, ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə bütün bu norma, prinsip və qətnamələri təkbaşına həyata keçirib. Buna görə də, bu məsələnin nə qədər təcili və vacib olduğunu çox yaxşı anlayırıq. Aydın məsələdir ki, bu mənfi tendensiyanı aradan qaldırmağın və dünyada sülh, sabitlik və rifahı təmin etməyin ən etibarlı yolu çoxtərəfli sistemi gücləndirməkdir. Elə bir sistem ki, burada bütün ölkələr qaydalara hörmət edir, bir-birini kollektiv və yanaşı mexanizmlərlə məsuliyyətə cəlb edir, bir-birinə dəstək göstərir və bir dövlətin maraqlarını digərindən üstün tutan birtərəfli yanaşmaları rədd edir".



Milli Məclisin sədri çıxışının sonunda birgə səylərlə Asiya Parlament Assambleyasının potensialının tam şəkildə açılacağına, onun effektivliyinin maksimum dərəcədə artacağına inamını ifadə edib.

Asiya Parlament Assambleyasının Baş katibi Mohammad Reza Majidi isə çıxışında bildirib ki, Azərbaycan bu təşkilata sədrliyi üzərinə götürməklə güclü əməkdaşlıq nümunəsi nümayiş etdirdi. Assambleya qarşıda duran proqramları Azərbaycanın sədrliyi ilə tam yerinə yetirib.

"Bu dünyada millətlər, dövlətlər müxtəlif çağırışlarla üzləşir. Parlament diplomatiyası daha da gücləndirilməlidir ki, beynəlxalq sülhün və təhlükəsizliyin dağılmasının qarşısını ala bilək. Bu gün parlament üzvləri kimi əlimizdən gələni etməliyik", - deyə Baş katib qeyd edib.

İndoneziya Nümayəndələr Palatasının sədri, xanım Puan Maharani isə deyib ki, növbəti 25 il Asiya əsrini reallaşdırmaq, dinc bir Asiya yaratmaq üçün həlledici dövr olacaq: "Hazırkı dövr dünyanın çoxqütblülüyünün artması ilə xarakterizə olunur. Çoxqütblülük bütün ölkələr üçün daha həlledici fürsət verməlidir. Amma, eyni zamanda, bu, qeyri-sabitliyə də səbəb ola bilər. Böyük qeyri-müəyyənliyi azaltmaq üçün beynəlxalq hüquqa əsaslanan daha güclü çoxtərəfli yanaşmaya da ehtiyacımız var".

Çıxış edən İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqir Qalibaf qeyd edib ki, dünya dərin və çoxşaxəli dəyişikliklər dövrünü yaşayır: "Bu proseslər beynəlxalq siyasətə, iqtisadi sistemlərə və ictimai nizamın formalaşmasına ciddi təsir göstərir. Dünya əhalisinin təxminən 60 faizinin yaşadığı Asiya qitəsi qədim sivilizasiyaların beşiyi olmaqla yanaşı, müxtəlif xalqların tarixini, dilini, mədəniyyətini və ənənələrini özündə birləşdirən unikal resurslara malikdir. Bu zənginlik Asiyanın qlobal və regional problemlərin həllindəki rolunu daha da artırır".

Onun sözlərinə görə, regional münaqişələr, terror təhdidləri, pandemiyalar, iqlim dəyişikliyi, qeyri-qanuni fəaliyyətlər və hegemonluq siyasəti təkcə lokal deyil, qlobal sabitlik üçün də ciddi təhlükə yaradır: "Belə bir şəraitdə çoxtərəfli diplomatiya və beynəlxalq əməkdaşlıq zərurətə çevrilir. İnsan hüquqlarını qorumaq, hər bir fərdin səsinin eşidilməsini təmin etmək üçün qətiyyətli mövqe sərgiləməliyik".

Bəhreyn Şura Məclisinin sədri Əli Saleh Abdulla Əlsaleh isə çıxışında deyib ki, Asiya Parlament Assambleyası region dövlətlərinin maraqlarına xidmət edən bir platforma kimi mühüm rol oynayır. O, müasir dünyada çoxqütblü yanaşmaların, ədalətli maraqlar balansının və xalqların suveren hüquqlarına hörmətin zəruriliyini qeyd edib: "Hegemon qüvvələrin müdaxilələrinin qarşısının alınması vacib amildir. Asiya Parlament Assambleyası diplomatiya, iqtisadi və sosial sahələrdə müsbət dialoqu təşviq edən bir qurumdur, bu istiqamətdə mühüm rol oynayır".

Bəhreyn Krallığının Asiya Parlament Assambleyasının fəaliyyətinə verdiyi töhfələrdən danışan Şura sədri ölkəsinin bu təşkilatın işində fəal iştirak etdiyini və onun beynəlxalq arenada mövqeyinin gücləndirilməsinə sadiq qaldığını bildirib. O, Bəhreyn Krallığının Asiya Parlament Assambleyasının sədrliyinə namizədliyini irəli sürdüyünü elan edərək, təşkilatın üzvlərinin etimadını və dəstəyini qazanmağa ümidvar olduğunu deyib.

Çıxış edən Türkiyə Böyük Millət Məclisinin üzvü Abdulkadir Emin Önen Asiyanın Qərbdən Şərqə və Cənubdan Şimala uzanan zəngin mədəni müxtəlifliyinə diqqət çəkərək bildirib ki, qitə bəşəriyyətin ən böyük və qədim yurdu olsa da, bəzi problemlər səbəbindən potensialını tam reallaşdıra bilmir. Onun sözlərinə görə, Asiyanın mövcud zənginliyini fıravanlığa çevirmək üçün birgə fəaliyyət zəruridir. Əməkdaşlıq və həmrəylik sayəsində daha yüksək inkişaf səviyyəsinə çatmaq mümkündür. Bu məqsədlə, çoxölçülü və təkmil əməkdaşlıq mexanizmlərinin qurulmasına ehtiyac var.

Abdulkadir Emin Önen qeyd edib ki, Azərbaycan və Ermənistan arasında sülh danışıqlarının ədalətli və davamlı nəticə verməsi təkcə bu iki ölkə üçün deyil, bütün regionda sabitliyin və rifahın gücləndirilməsi baxımından önəmlidir. O, Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu və bundan sonra da dəstəyini davam etdirəcəyini vurğulayıb.

Milli Məclisin Asiya Parlament Assambleyasında nümayəndə heyətinin rəhbəri Rizvan Nəbiyev isə çıxışında söyləyib ki, İran İslam Respublikası və Bəhreyn Krallığı təşkilata 2026-2027-ci illərdə sədrlik üçün namizədliklərini təqdim ediblər: "İcraçı Katiblik və Asiya Parlament Assambleyası rəhbərliyi tərəfindən bu namizədliklər təsdiqlənib. Razılaşmaya əsasən, Bəhreyn Krallığı 2026-cı ilə qədər APA-ya rəhbərlik edəcək, İran İslam Respublikası isə 2027-2028-ci illərdə bu vəzifəni vəzifəsini icra edəcək. İran, eyni zamanda, APA-nın Daimi Komitəsinində vitse-prezident kimi fəaliyyət göstərəcək".

Tədbirdə digər ölkələrin nümayəndələri də çıxış ediblər. Eləcə də, bir sıra qərarlar qəbul olunub. Oman Sultanlığı Asiya Parlament Assambleyasına tamhüquqlu üzv qəbul edilib. İclasda, eyni zamanda, Belarus Respublikasının müşahidəçi statusu barədə məsələ təsdiqlənib.

*Nardar BAYRAMLI*

# Xəzər sahillərində unikal iqtisadi məkan

**Mavi Xəzərin Azərbaycan sahillərində unikal iqtisadi məkan yaradılır. Söhbət Ələt Azad İqtisadi Zonasından (ƏAİZ) gedir. 2023-cü il 9 iyun tarixində Prezident İlham Əliyevin iştirakı ilə Azad İqtisadi Zonanın birinci mərhələsinin açılış mərasimi baş tutub. Hazırda Ələtdə karqo hava limanının inşası da uğurla davam etdirilir. Bu barədə Ələt Azad İqtisadi Zonası Səlahiyyətli Qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov bildirib. "Bu hava limanı Azərbaycanın iqtisadiyyatı və qonşu ölkələr üçün mühüm üstünlüklər yaradacaq. Eləcə də geniş xidmətlər göstərəcək", - deyə qurum rəsmisi vurğulayıb.**

**V. Ələsgərov qeyd edib ki, 2026-cı ildə tamamlanacaq layihə çərçivəsində hava limanı 750 hektardan çox ərazini əhatə edəcək. İlkin mərhələdə hava limanının illik 500 min ton yükdaşıma gücünə malik olması nəzərdə tutulur. Növbəti mərhələdə isə bu göstəricinin 1,5 milyon tona çatdırılması planlaşdırılır.**

## Azad İqtisadi zonanın yüksək cəlbediciliyi

**Ələt İqtisadi Zonasının investorlar üçün cəlbediciliyi həm də mükəmməl qanunvericilik bazası ilə şərtlənir. Ələt qəsəbəsində azad iqtisadi zonanın yaradılmasına hələ bir neçə il bundan əvvəl Prezident İlham Əliyevin təşəbbüsü ilə start verilib. Dövlət başçısı 17 mart 2016-cı il tarixində "Bakı şəhəri Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Sonrakı mərhələdə bəhs olunan azad iqtisadi zonanın yaradılmasının hüquqi əsaslarını təmin etmək üçün daha bir neçə önəmli sənəd qüvvəyə minib, həmçinin Milli Məclisdə "Ələt Azad İqtisadi Zonası haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib**

Dünya praktikasına nəzər saldıqda görürük ki, hər bir iqtisadi zonanın uğurlu fəaliyyəti və yüksək cəlbediciliyi üçün bir sıra mühüm şərtlər təmin edilməlidir. Son illərdə Azərbaycanın Avrasiyanın əsas nəqliyyat hablarından birinə çevrilməsi Ələtdə yaradılan Azad İqtisadi Zonanın cəlbediciliyini artıran çox vacib amildir. Ölkə ərazisindən keçən Şərq-Qərb və Şimal-Cənub marşrutları üzrə yaradılan müasir infrastruktur açıq dənizə çıxışı olmayan Azərbaycanın regionda mühüm tranzit ölkəyə çevrilməsini təmin edib. Bu gün ayrı-ayrı ölkələr və şirkətlər Azərbaycanın moderatorluğu ilə inşa olunan Bakı-Tbilisi-Qars dəmir yolundan və respublikamızda qeyd olunan marşrutlar üzrə yaradılan yüksək səviyyəli infrastrukturdan bəhrələnərək öz yüklərinin Avropadan Asiyaya, eləcə də əks istiqamətə məhz respublikamızın üzərindən daşınmasına üstünlük verirlər. Deyə bilərik ki, ölkəmiz reallaşdırdığı layihələr sayəsində Avrasiya coğrafiyasının nəqliyyat xəri-

tə-

sini dəyişib. Azərbaycandan keçən nəqliyyat marşrutları ilk növbədə səmərəliliyi və təhlükəsizliyi nöqteyi-nəzərindən diqqəti cəlb edir. Ölkəmizin ərazisində həmçinin Çin və Qazaxıstan sərhədlərindən başlayaraq Avropayadək uzanan Orta Dəhliz inkişaf etdirilir. Gələcəkdə bu marşruta Zəngəzur dəhlizi də inteqrasiya ediləcək. Bununla da məsafə daha da qısalacaq. Ölkə ərazisində investorların müasir infrastrukturla, müxtəlif dəhlizlərə çıxış imkanlarının olması Ələt İqtisadi Zonasına böyük üstünlüklər qazandırır.

Ələt İqtisadi Zonasının investorlar üçün cəlbediciliyi həm də mükəmməl qanunvericilik bazası ilə şərtlənir. Qeyd edək ki, Ələt qəsəbəsində azad iqtisadi zonanın yaradılmasına hələ bir neçə il

bundan əvvəl Prezident İlham Əliyevin təşəbbüsü ilə start verilib. Dövlət başçısı 17 mart 2016-cı il tarixində "Bakı şəhəri Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Sonrakı mərhələdə bəhs olunan azad iqtisadi zonanın yaradılmasının hüquqi əsaslarını təmin etmək üçün daha bir neçə önəmli sənəd qüvvəyə minib, həmçinin Milli Məclisdə "Ələt Azad İqtisadi Zonası haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Pandemiyanın dünyada yaratdığı böyük iqtisadi və maliyyə çətinliklərinə

baxmayaraq, 2021-ci il iyulun 1-də Prezident İlham Əliyevin iştirakı ilə Ələt Azad İqtisadi Zonasının təməli qoyulub. Dövlətimizin



başçısının 25 noyabr 2019-cu il tarixində imzaladığı müvafiq fərmanla isə Ələt Azad İqtisadi Zonasının müvəqqəti idarəetmə qurumu yaradılıb.

## İnvestorlar üçün geniş imtiyazlar

Ələt Azad İqtisadi Zonasının ümumi sahəsi 850 hektardır. Burada investorlar üçün aşağıdakı fiskal və qeyri-fiskal imtiyazlar tətbiq edilir:

- İnvestorlar əlavə dəyər vergisi, ödəmə mənbəyində vergi, mənfəət vergisi və hər hansı digər korporativ vergidən azaddırlar;
- Zonada idxal və ixrac zamanı gömrük rüsumları və vergilər tətbiq olunmur;
- Aylıq əməkhaqqı 8 min manata qədər olan işçilər üçün gəlir vergisi tətbiq olunmur;
- Yüksəkixtisaslı əcnəbi işçilər üçün sosial sığorta ödənişləri könüllü, yerli işçilər üçün isə məcburi xarakter daşıyır;
- Əcnəbi hüquqi və fiziki şəxslərin Ələt Azad İqtisadi Zonasında mülkiyyət sahibi olmasına heç bir məhdudiyyət qoyulmur;
- Xarici investorlar üçün yerli tərəfdaş və səhmdar tələbi yoxdur;
- Valyuta əməliyyatları və ya mənfəətin repatriasiyasında heç bir məhdudiyyət yoxdur;
- İnvestorların əmlakı heç bir halda milliləşdirilə bilməz və Ələt Azad İqtisadi Zonası Səlahiyyətli Qurumu investorların əmlakını bu və ya digər məhdudiyyətlərdən qorunmasına təminat verir;
- Ələt Azad İqtisadi Zonası Səlahiyyətli Qurumu, həmçinin investorların əqli mülkiyyət hüquqlarının tam qorunmasına təminat verir.

*Mübariz FEYİZLİ*

# Əmək bazarının rəqəmsallaşması...

## Son 5 ildə əmək müqavilələrinin sayının 458 min vahid artaraq 1,8 milyonu ötməsinə səbəb olub

Ölkəmizdə həyata keçirilən təşviq əsaslı vergi siyasəti əmək bazarına da öz müsbət təsirlərini göstərməkdədir. İş yerlərinin rəsmiləşdirilməsi, əmək haqqı fondunun "ağardılması" və şəffaflılığın təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlərin nəticəsi olaraq, bağlanmış əmək müqavilələrinin sayı 2019-cu illə müqayisədə 458.110 vahid artaraq 1.860.025-ə çatıb. Əmək müqavilələrinin sayında ən çox artım ticarət sahəsində (29,6 faiz), ikinci xidmət (22,7 faiz), üçüncü sənaye (12,9 faiz) sektorunda qeydə alınıb. Maliyyə, rabitə, kənd təsərrüfatı və nəqliyyat sektorlarında 2,3 - 4,7 faiz aralığında artım müşahidə edilib.

Əmək müqavilələrinin sayında artımın baş verməsində biznesin iqtisadi fəallığının yüksəlməsi, yeni müəssisələrin fəaliyyətə başlaması, investisiya təşviqi çərçivəsində həyata keçirilən layihələr və digər islahat tədbirləri öz mühüm təsirlərini göstərib.

### Rəsmi məşğulluğun təmin edilməsi sığorta yığımlarının yüksəlməsinə səbəb olub

Əmək müqavilələrinin artımı və rəsmi məşğulluğun təmin edilməsi ölkə üzrə sığorta yığımlarının da həcminin yüksəlməsinə səbəb olub. 2024-cü ildə muzdlu işçi sayının və əməkhaqqı fondunun "ağardılması" prosesi şəraitində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar əvvəlki illə müqayisədə 273,5 milyon manat və ya 5 faiz artaraq 5 milyard 763 milyon manat təşkil edib. Büdcə təşkilatları üzrə daxilolma əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 146,4 milyon manat və ya 8,1 faiz, qeyri-büdcə təşkilatları üzrə isə 410,6 milyon manat və ya 12,1 faiz artıb.

Ümumilikdə, 2018-2024-cü illərdə Fonda daxil olan sosial sığorta haqları üzrə illik vəsait 2,5 dəfə artaraq 2,3 milyard manatdan 5 milyard 752 milyon manata çatıb.

Aparılan sosial-iqtisadi islahatlar əməkhaqlarının, əmək müqavilələrinin sayının, əhalinin sosial sığorta sistemində iştirak səviyyəsinin əhəmiyyətli şəkildə artması digər sosial seqmentlər üzrə yığımalarda da artımı təmin edib. Belə ki, 2024-cü ildə işsizlikdən sığorta haqları üzrə daxilolmalar 2023-cü illə müqayisədə 13,7 faiz artaraq 208,1 milyon manata çatıb. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 16,9 faiz artaraq 156,9 milyon manat təşkil edib. İcbari tibbi sığorta haqları üzrə daxilolmalar ötən il 2023-cü illə müqayisədə 8,6 faiz artaraq 1 milyard manatdan çox olub. Bu sahədə



qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 10 faiz artaraq 721,3 milyon manata çatıb.

### ƏMAS hamını vahid elektron platformada birləşdirir

Əmək müqavilələrinin sayının artmasında əmək münasibətlərinin rəsmiləşdirilməsi ilə bağlı rəqəmsal alətlərin tətbiqi, o cümlədən e-qeydiyyat sistemi xüsusi rol oynamaqdadır. Azərbaycanda əmək müqavilələrinin elektron qeydiyyat sistemi təxminən 5 ildən artıqdır ki, fəaliyyət göstərir.

Sistem əmək münasibətlərinin elektron müstəvidə şəffaflaşdırılmasına, bu münasibətlərin dəqiq və əhatəli uçotunun aparılmasına, əmək bazarına çevik və obyektiv, səmərəli dövlət nəzarətini təmin etmək məqsədilə yaradılıb. Məqsəd ölkənin bütün muzdla çalışan əhalisini əhatə edən əmək müqavilələrinin elektron qeydiyyat sistemi vasitəsilə işçilərin əmək və gələcək layiqli pensiya təminatı üçün də etibarlı hüquqi əsas formalaşdırmaqdır.

2024-cü ilin avqust ayında "Əmək Məcəlləsi"nə edilmiş dəyişikliklərlə əlaqədar əmək müqavilələrinin bağlanmasında kargüzarlıq sisteminin ləğvi və əmək münasibətlərinin yeni elektron infrastruktura inteqrasiyası bu prosesdə şəffaflığı daha da möhkəmləndirib. Belə ki, müvafiq elektron sistemdə "Əmək və məşğulluq" altsisteminin (ƏMAS) istifadəyə verilməsi sayəsində əmək və məşğulluq sahəsində bütün məlumatlar vahid elektron platformada mərkəzləşdirilib. Nəticədə ƏMAS-ın tətbiqi rəqəmsal platformaya əsaslanmaqla kağız üzərində kadr inzibatçılığının tamamilə ləğvinə səbəb olub.

Beləliklə, əmək müqavilələrinin tamamilə elektronlaşdırılması əmək münasibətləri sistemində obyektivlik və çevikliyi artırmağa imkan verməkdə, müəssisə və təşkilatlar, özəl sektorda işçilərlə əmək müqaviləsinin saxtalaşdırılması hallarının aradan qaldırılmasında mühüm rol oynamaqdadır.

*ELBRUS CƏFƏRLİ*

# Azərbaycan regionun iqtisadi coğrafiyasını zənginləşdirir

## Ərəb Ölkələri Liqası-Mərkəzi Asiya-Azərbaycan iqtisadi bloku yaradılır

Fevralın 26-dan 27-dək BƏƏ-nin paytaxtı Əbu-Dabidə ərəb biznesmenləri və investorları - Mərkəzi Asiya və Azərbaycan formatında 1-ci konfrans keçiriləcək. Ərəb Ölkələri Liqası, BƏƏ-nin İqtisadiyyat Nazirliyinin dəstəyi ilə baş tutacaq konfransda iştirakçı ölkələrin iqtisadiyyat nazirləri, ərəb təşkilatlarının rəhbərləri və digər nümayəndə heyətləri iştirak edəcəklər.

Konfrans çərçivəsində dəyirmi masaların və görüşlərin təşkil olunacağı gözlənilir. Doha Bəyannaməsinə əsasən, təşkil olunacaq konfransın məqsədi Ərəb Ölkələri ilə Mərkəzi Asiya dövlətləri və Azərbaycan arasında iqtisadi, ticari, investisiya əməkdaşlığını möhkəmləndirmək, özəl sektorla biznes icması arasında səmərəli əməkdaşlıq imkanlarını artırmaqdır.

### Körfəz ölkələrindən Azərbaycana böyük sərmayələr

Azərbaycanın xarici iqtisadi əlaqələrində son illər Ərəb və Mərkəzi Asiya regionu ölkələri ilə təmasların intensivliyi artmaqdadır. İqtisadi əlaqələr əvvəlki illərdə əsas etibarilə neft-qaz və ənənəvi enerji sahələrinə söykənirdisə, son 2 il-



də iqtisadi coğrafiya həm sahələr üzrə, həm də dinamika baxımdan xeyli genişlənib. Münasibətlərin ritmində qeyri-neft sektoru ön plana çıxmaqla biznes blokları arasında işgüzar təmasların da şaxələndirib. Hazırda səudiyyə şirkətləri ölkəmizin sənaye, nəqliyyat, rabitə, İKT, infrastruktur, turizm, rəqəmsal innovasiyalar, əmək, məşğulluq və digər sahələrdə təmsil olunmaqla iqtisadi panoramını zənginləşdirib.

Azərbaycanla Ərəb fondları arasında imzalanmış Anlaşma Memorandumu prioritet sahələr üzrə layihələrin maliyyələşdirilməsi üzrə dərin zəmin yaradıb, ərəb sərmayəçiləri sənaye və aqar sahələrdə bir sıra layihələrə maliyyə ayrılmasını təmin edib. Azərbaycan hökuməti ilə körfəz ölkələrinin inkişaf fondları və şirkətləri ilə imzalanmış anlaşma memorandumları ticarət mübadiləsinin həcmini əhəmiyyətli dərəcədə böyüdüb. 2024-cü ildə Azərbaycan ilə Körfəz Əməkdaşlıq Şurasına üzv ölkələr arasında ticarət dövriyyəsinin həcmi 30 faizə yaxın artaraq 250 milyon dollara yaxınlaşıb. Eyni zamanda, tərəflərin investisiya qoyuluşlarında da artımlar müşahidə edilir, hazırda KƏŞ ölkələri tərəfindən Azərbaycan iqtisadiyyatına yatırılmış investisiyaların həcmi 4 milyard dollardan çoxdur.

### "Yaşıl enerji" ittifaqı

Hazırda Ərəb və Mərkəzi Asiya ölkələri ilə respublikamız arasında daha çox sərməyə təşviqlərinə səbəb olan "yaşıl enerji" gündəliyi uğurla icra olunmaqdadır. Ərəb ölkələrinin "yaşıl enerji" sahəsində nüfuzlu şirkətlərinin Azərbaycanda həyata keçirdiyi layihələr bu sahədə sərmayə imkanlarını daha da təşviq edir. Səudiyyə Ərəbistanının "ACWA Power", BƏƏ-nin "Masdar" şirkəti ilə "yaşıl enerji" sahəsi üzrə imzalanmış müqavilələr investisiya tutumu 2 milyard dollardan artıqdır. Azərbaycanın Mərkəzi Asiya ilə tranzit-logistika imkanlarının əlaqələndirilməsi, habelə Mərkəzi Asiya-Azərbaycan- Qara dəniz-Avropa "yaşıl enerji" dəhlizinin çəkilişi ərəb ölkələrinin də bu prosesə inteqrasiyasını təmin etməklə əməkdaşlığın coğrafiyasını genişləndirə bilər. Bu baxımdan konfransda bərpa olunan enerjinin yeni trendləri üzrə səmərəli razılaşmaların əldə olunacağı istisna deyil.

### Ərəb kapitalı azad ərazilərdə...

İşğaldan azad edilmiş ərazilərdə həyata keçirilən yenidənqurma və bərpa proseslərini, "Böyük Qayıdış" proqramını diqqətlə izləyən və bu bölgənin reinteqrasiya proseslərində xarici iş adamlarına yaradılan əlverişli iş imkanlarını qiymətləndirən ərəb iş adamları investisiya qoyuluşunda iştirak məsələsini istisna etmirlər. Bu prosesdə Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri daha fəallığı ilə diqqəti cəlb edir. 2022-2023-cü illərdə hər iki ölkənin böyük bir nümayəndə heyəti ölkəmizdə səfəri çərçivəsində azad edilmiş ərazilərə baş çəkərək bölgənin resursları və investisiya imkanları ilə yaxından tanış olub. Həmin səfər zamanı ərəb iş adamları Qarabağın bərpa prosesində iştirak etmək niyyəti və investisiya fondlarının bu prosesə qoşulacağı bildirilib.

Beləliklə, Ərəb Ölkələri Liqası-Mərkəzi Asiya- Azərbaycan formatındayeni iqtisadi-investisiya blokunun formalaşması bölgədə yeni iqtisadi coğrafiyanın təsis edilməsi, iqtisadi-ticari mübadilənin genişlənməsi və böyük bir inkişaf bumunun qurulmasına töhfəsini verəcək.

*ELBRUS CƏFƏRLİ*

# "OPEK+" formatı genişlənir

## Braziliyanın neft alyansına qoşulması qiymətlərə təsir imkanlarını artıra bilər

Braziliya fevralın 18-də "OPEC+" alyansına qoşulmaq barədə qərarını açıqlayıb. Ölkənin mədən və energetika naziri Alexandre Silveyra bildirib ki, "OPEC+" blokuna qoşulmaq Braziliyanın enerji sənayesində taleyüklü məqam olsa da, beynəlxalq enerji ailəsi ilə dialoq və əməkdaşlıq üçün yeni səhifə açır. Beləliklə, Braziliyanın qaz sindikatına qoşulmasından sonra "OPEC+" ailəsinin sayı 10-dan (Azərbaycan, Bəhreyn, Bruney, Qazaxıstan, Malayziya, Meksika, Oman, Rusiya, Sudan, Cənubi Sudan) 11-ə çatmış olacaq.

### "OPEC+"un neft bazarında rolu

Qeyd edək ki, "OPEC+" enerji ittifaqı adətən qlobal enerji bazarlarında baş verən fraqmentasiyalara uyğun qərarlar qəbul edir, bazarda nizamlayıcı rol oynamaq üçün yanacağın tədarük kvotalarını müəyyənləşdirir. Kartel ölkələrinin başlıca prinsipi sabit və sərfedici qiymət portfelinin dayanıqlılığının qorunmasıdır. Alyans üzvləri gündəlik qlobal neft tədarükünün (104 milyon barel) təxminən 42 faizini təmin edir. Tədarükçü ölkələr arasında ədalətli yanaşma neftin qiymətlərinin orta bazar çərçivəsində 80-100 dollar arasında qalmasıdır. "OPEC+"in siyasətində neftin yüksək olması da arzuolunan deyil, tədarükçülər qeyd edilən qiymət çərçivəsini münasib hesab edərək bazara tələb olunan kvotaya uyğun neft çıxarır. Neftin qiymətləri yüksələndə adətən hasilat və nəql artırılır.

"OPEC+" ölkələri neftin qiymətləri ucuzlaşanda, hazırkı ssenariyə əsasən, yanacağın qiymətinin orta satış 70 dollardan aşağı düşməsi tendensiyası artanda hasilatı azaltmaq qərarı verir. Son 2 ildə dünya bazarında neftin orta satış qiyməti 80-90 dollar civarında dövr etdiyindən "OPEC+" ölkələri neftin hasilatını artırmaq yox, nisbi azaltmaq kursu üzrə hərəkət edib. 2024-cü ilin sonlarında kartel ölkələrinin toplantısında neft hasilatının sabit kvotada qalması qərarı qüvvədə qalıb. Hazırkı şəraitdə neftin qiyməti 70-80 dollar civarındadır və bu, müəyyən qədər risklər yarada bilər. Xüsusilə də, Tramp hökumətinin qlobal bazarlara çoxhəcmli neft tədarük olunacağı barədə mesajları "OPEC+" ölkələrinin narahatlığını müəyyən dərəcədə artırır. Mövcud situasiyalar neft qiymətlərinin aşağı düşməsi tendensiyasının qarşısını almaq, aşağı hasilat dəhlizinin saxlanılmasını təmin etməkdir. Bir sözlə, onluq ölkələri müxtəlif vaxtlarda qiymət riskləri yarandığı zaman tələbatın azaldılması kursunu yürütməklə qiymətlərə təsir edir.




### Braziliyanın alyansa qoşulması nə vəd edir?

BMT-nin COP-30 konfransına ev sahibliyi edəcək ölkə olan Braziliyanın beynəlxalq iqlim ailəsinin qalıq yanacaq tədarükünə qarşı tələblərinin artdığı və ətraf mühitlə bağlı üzərinə mühüm öhdəliklər götürdüyü vaxtda birdən-birə böyük yanacaq tədarükçülərinin sırasına qoşulması müəyyən suallar yaradır. Rəsmi Rio-de-Janeyro faktiki olaraq karteldə yer almaqla qlobal bazarda iri enerji təchizatçılarından birinə çevriləcək və bu yanaşma COP-30-a liderlik edəcək ölkənin antiqalıq yanacaq strategiyası ilə üst-üstə düşmür. Mövcud addım bu baxımdan daha çox siyasi qərar daşımasından xəbər verir. Belə ki, Tramp hökumətinin COP sammitlərindən çıxacağına dair bəyanatı, ardınca ABŞ-ın neft və LNG (sıxılmış qaz) hasilatında yeni dövrə start verməsi və bununla da qalıq yanacaq istehsalı bazarını daha da stimullaşdırması beynəlxalq iqtisadi münasibətlər sistemində də vahidliyin pozulmasına yol açır. Eyni zamanda, həm "OPEC", həm də "OPEC+" ölkələrinin qlobal neft bazarında təsiredici rolunun artması, Braziliyanın da siyasi-iqtisadi blokda yerini möhkəmləndirməsinin şərtləndirir. Ölkənin energetika naziri A. Silveyranın vurğuladığı kimi, Braziliyanın neft istehsalçısı olması unudulmamalıdır, "OPEC+" ailəsinə qoşulması isə bu ölkə üçün neft hasilatı ilə bağlı strategiyasını müzakirə etmək və əlaqələndirməkdə mühüm platforma olacaq.

Braziliya dünyanın ən böyük iqtisadiyyatlarından biri kimi həm də BRICS blokunda aparıcı statusa malikdir. "OPEC+" ölkələrinin bir neçəsi həm də bu təşkilatda birləşib. Bu baxımdan Braziliyanın neft karteli ölkələrinə qoşulması yeni iqtisadi tələbləri də meydana çıxaracaq. BRICS-in ümumi iqtisadi strategiyalarının həyata keçirilməsində də ön planda olan Braziliya "OPEC+" alyansına daxil olmaqla bu ölkənin yerləşdiyi regionda və qlobal enerji bazarında proseslərə daha fəal təsiretmə imkanlarını artıracaq.

*ELBRUS*

# Danışıqlar üçün ideal ölkə...

## Türkiyənin Rusiya-Ukrayna müharibəsi ilə bağlı sülh prosesində rolu güclənir

Hazırda Ukrayna müharibəsi ilə əlaqədar beynəlxalq müstəvidə yeni vəziyyət yaranıb. ABŞ-ın yeni Prezidenti Donald Tramp və onun komandası müharibəni sonlandırmaq üçün fərqli təşəbbüslərlə çıxış edir. Artıq Tramp administrasiyası danışıqlara başlamaq üçün praktiki addımlar atmaqdadır. Belə bir şəraitdə isə Avropa İttifaqı oyundankənar vəziyyətdə qalmaq ehtimalından narahatdır.



### Ərdoğan: Bizim sülh gündəliyimiz açıq və səmimi olub

Baş verən proseslərin fonunda müharibə tərəfləri Türkiyənin roluna hələ də ehtiyac duyur. Ukrayna Prezidentinin 17-18 fevral tarixlərində Türkiyəyə rəsmi səfəri də bunu təsdiqləyir. Səfər zamanı Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanla Zelenskinin görüşündə ikitərəfli münasibətlər və Rusiya-Ukrayna müharibəsi müzakirə mövzusu olub. İki ölkə liderinin iştirakı ilə media və təhsil sahələri də daxil olmaqla, bir sıra sazişlər imzalanıb.

Görüşün nəticələrinə dair keçirilən mətbuat konfransında Ərdoğan bildirib ki, Türkiyə Rusiya - Ukrayna və ABŞ-ın iştirakı ilə keçiriləcək potensial danışıqlar üçün ideal ölkədir. Onun sözlərinə görə, Rusiya - Ukrayna müharibəsi kütləvi dağıntılara səbəb olub. "Hərbi əməliyyatlara son qoyulmalıdır. Ankara qan tökülməsinin qarşısını almaq üçün bundan sonra da əlindən gələni etməyə hazırdır", - deyən dövlət başçısı Türkiyənin Ukraynanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulayıb.

Türkiyə lideri əminliklə söyləyib ki, müharibənin davam etməsində qalib tərəf olmayacağı kimi, sülh sazişinin bağlanmasında da məğlub tərəf olmayacaq: "Münaqişənin ilk günlərindən Türkiyə etibarlı vasitəçi olmağa çalışıb. Bizim sülh gündəliyimiz açıq və səmimi olub və olacaq. Buna görə də biz konkret nəticələr əldə etməyə çalışmışıq". O, Ankaranın təşəbbüsü ilə 2022-ci ilin martında Kiyevlə Moskva arasında baş tutmuş birbaşa danışıqları və Qara dəniz taxıl təşəbbüsünü xatırladıb.

Ərdoğan Trampın Ukrayna ilə bağlı təşəbbüslərini də şərh edib. "Ağ Ev rəhbərinin diplomatik kursu son illərdə Ankaranın nümayiş etdirdiyi sülh mövqeyi ilə üst-üstə düşür. Danışıqlar prosesinin tezliklə və uzunmüddətli sülhlə başa çatması üçün bütün zəruri addımları atmağa hazırıq. Bütün dünya Ukraynada sülhün bərqərar olmasını gözləyir", - deyə Türkiyə lideri bildirib.

### Zelenski: Türkiyənin Ukraynanın ərazi bütövlüyünə dəstəyi Kiyev üçün çox vacibdir

Öz növbəsində Ukrayna prezidenti münaqişənin güc yolu ilə həlli variantını istisna edib. "Silahlı əməliyyatlar Moskvanı istədiyi nəticəyə çatdırmadı. Biz Rusiya ordusundan qorxmuruq. Amma yeni itkilərə səbəb olmamaq üçün təhlükəsizlik zəmanəti şərtdir. ABŞ bizə lazım olan dəstəyi vermir. Bəzi Qərb ölkələri bizim NATO-ya üzvlüyümüzü dəstəkləmir. Ədalətli nizamlanmaya hədəflənmiş diplomatik proses zəruridir", - deyə o bildirib və uzunmüddətli sülh yolunda heç bir səhvə yol verməməyə çağırış edib. Moskva və Vaşinqton arasında Ukrayna ilə bağlı aparılan dialoqa toxunan Zelenski qeyd edib ki, Kiyev bu danışıqlara dəvət olunmayıb. "Bu, bir çoxları kimi bizim üçün də sürpriz oldu. Görüş haqqında məlumatı mediadan öyrəndik", - deyə o söyləyib.

Zelenskinin sözlərinə görə, Ukraynada müharibənin dayandırılması üzrə danışıqlarda ABŞ-la yanaşı, bütün maraqlı ölkələr də iştirak etməlidir. "Əgər danışıqlar masasında Ukrayna, ABŞ və Avropa olarsa, bizə verilən zəmanətlər bütün ölkələrin iştirakı ilə təmin ediləcək. Biz Kiyevin arxasında qəbul edilən qərarlara qarşıyıq", - deyə Zelenski vurğulayıb. Onun sözlərinə görə, Türkiyənin Ukraynanın ərazi bütövlüyünə dəstəyi Kiyev üçün çox vacibdir.

Qeyd edək ki, Zelenski ilə görüşdən sonra Ərdoğanın NATO Baş katibi Mark Rutte ilə telefon danışığı olub. O, telefon söhbətində deyib ki, Rusiya-Ukrayna müharibəsində daimi atəşkəsin təmin olunması mümkündür. Ərdoğan, bir çox aktorlar və beynəlxalq təşkilatlarla bu mövzu ətrafında təmasda olduğunu söyləyib. Türkiyə Prezidenti Ukrayna ilə Rusiya arasında müharibənin sona çatması üçün əlindən gələni etdiyini diqqətə çatdırıb.

**Ərdoğan: "Ağ Ev rəhbərinin diplomatik kursu son illərdə Ankaranın nümayiş etdirdiyi sülh mövqeyi ilə üst-üstə düşür. Danışıqlar prosesinin tezliklə və uzunmüddətli sülhlə başa çatması üçün bütün zəruri addımları atmağa hazırıq. Bütün dünya Ukraynada sülhün bərqərar olmasını gözləyir"**

### Hakan Fidan: Hər şeydən əvvəl atəşkəsi təmin etməliyik

Göründüyü kimi, Türkiyə Ukrayna böhranının həlli üçün fəal diplomatiya yürüdür. Yeri gəlmişkən, Türkiyənin xarici işlər naziri Hakan Fidan Münhen Təhlükəsizlik Konfransı çərçivəsində "TRT World" telekanalına müsahibəsində demişdi ki, Türkiyə, ABŞ və Avropa ölkələri Ukraynadakı münaqişəni dayandırmaq və sülhə nail olmaq üçün planın müxtəlif aspektləri üzərində işləyir: "Amma hər şeydən əvvəl atəşkəsi təmin etməliyik. Bizə işlək və uzunmüddətli sülh planı lazımdır".

### "İstanbul prinsipləri" hələ də aktualdır

Qeyd etdiyimiz kimi, Türkiyənin təşəbbüslərinə müharibənin tərəfi olan hər iki ölkə etimad göstərir. Qardaş Türkiyə iki ölkə arasında müharibənin bitməsi üçün heç bir maraq güdmədən, səmimi olaraq çalışır.

Xatırladaq ki, 2022-ci ildə uzun müzakirələrdən sonra taxıl sazişi üzrə iyulun 13-də İstanbulda Türkiyə, Ukrayna, Rusiya və BMT nümayəndələrindən ibarət dördtərəfli görüş keçirilmişdi. Bu görüşün nəticəsi olaraq həmin il iyulun 22-də həmin məkanda taxıl ixracına dair saziş imzalandı. Sazişə uyğun olaraq, İstanbulda Rusiya və Ukrayna, BMT və Türkiyə nümayəndələrindən ibarət Birgə Koordinasiya Mərkəzi yaradılmışdı. "Taxıl və ərzaq mallarının Ukrayna limanlarından təhlükəsiz daşınması təşəbbüsü" razılaşmasına əsasən, müxtəlif ölkələrə on milyonlarla ton Ukrayna taxılı daşındı. Saziş Türkiyənin fəal diplomatiyası nəticəsində bir neçə dəfə uzadıldı. Lakin Qərb dövlətlərinin öz vədlərini yerinə yetirməməsi səbəbindən Rusiya 2023-cü ilin iyulundan sonra taxıl sazişinin uzadılmasından imtina etdi.

Zelenskinin Türkiyəyə son səfəri isə rəsmi Ankaranın prosesdə fəal iştirakını bir daha təsdiqləyir. Bu, o deməkdir ki, həm müharibə aparan tərəflər, həm də vasitəçilik edən ölkələr Türkiyənin regionda gücünü anlayır və Ankaranın sülh prosesində iştirakını həlledici amillərdən biri kimi qəbul edirlər.

*N. BAYRAMLI*

# Ər-Riyad görüşü: birinci raund başa çatdı

## Tramp ikinci görüşün anonsunu verdi... Rusiya ehtiyatlı davranır, Vaşinqton Zelenskini dəyişməyə hazırlaşır, Brüssel isə yol axtarır...

Fevralın 18-də Ər-Riyadda baş tutan görüş Ukraynada hərbi əməliyyatlar başlayandan bəri ilk Moskva - Vaşinqton təması kimi tarixə yazıldı. Dörd saat yarım davam edən danışıqlar prosesi iki raunddan ibarət olub - iki saat yarımlıq ilk raunddan sonra bir neçə dəqiqəlik "kofe brek" elan edilib, sonradan isə müzakirələr yenidən öz axarına qayıdıb. Ukrayna nümayəndə heyətinin təmsil olunmadığı üçün Kiyev danışıqların nəticələrini əvvəlcədən tanımaqdan imtina etmişdi...

### Razılaşmalar var...

Bu görüş təmasların ilk mərhələsi kimi xarakterizə olunur - növbəti mərhələ sayılan Tramp - Putin görüşünün "məşqi" də adlandırılır. Açıqlamalardan bəlli olur ki, növbəti görüşün reallaşması daha çox Rusiya prezidentindən asılıdır - Kremlin nümayəndə heyətinin üzvü və Putinin köməkçisi Yuri Uşakov bildirib ki, Rusiya və ABŞ-ın mövqelərinin yaxınlaşması barədə danışmaq hələ tezdir. İkitərəfli və yüksəksəviyyəli danışıqlar prorsesinin tərkibini, Ukrayna ilə bağlı Vaşinqtonla təmasları Putin özü müəyyən edəcək. "Amerikalı iştirakçıların adlarını alacağımız zaman prezident özü qərar verəcək", -deyə Uşakov bildirib.

Amma bəzi razılaşmalar münasibətlərdəki buzun sındırılması kimi də diqqəti cəlb edir:

- Ukraynada məskunlaşma üçün komandaların təyin edilməsi ilə bağlı razılaşma Dövlət Departamenti tərəfindən təsdiqlənib;

- Rusiya və ABŞ Moskva və Vaşinqtonda səfirliklərinin fəaliyyətini və sayını bərpa etmək niyyətindədir.

Uşakov isə bildirib ki, komandanın tərkibi hələlik məlum deyil. Onun sözlərinə görə, nümayəndə heyətləri bir-birinə Ukrayna münaqişəsi ilə bağlı problemə fundamental yanaşmalarını açıqlayıblar.



### Rusiya ilə ABŞ müttəfiq belə ola bilərlər...

Danışıqların mahiyyətinə gəldikdə isə rəngarənglik və hərtərəfli müzakirələr diqqəti cəlb edir. Rusiya və ABŞ Ukrayna üçün üç mərhələli sülh planı təklif ediblər, "Fox News"un müxbiri Ceki Henrix mənbələrə istinadən bunu yayıb. Bəlli olub ki, birinci mərhələ atəşkəsdir. İkinci mərhələ isə Ukraynada seçkilərin keçirilməsidir. Son mərhələ kimi isə yekun müqavilənin imzalanması nəzərdə tutulur.

Dövlət Departamentinin sözçüsü Tammi Bryus bildirib ki, Rusiya və ABŞ Ukraynadakı münaqişənin həlli ilə bağlı işə başlamaq üçün yüksək səviyyəli komandalar müəyyən etmək barədə razılığa gəliblər. Tərəflər həmçinin Ukraynada hərbi əməliyyatlar başa çatdıqdan sonra yaranacaq qarşılıqlı geosiyasi maraq doğuran məsələlərdə gələcək əməkdaşlığın əsasını qoymaq, eləcə də iqtisadi və investisiya imkanları" yaratmaq niyyətindədirlər.

Dövlət Departamenti danışıqları Ukraynadakı münaqişənin sona çatması istiqamətində mühüm addım adlandırıb, lakin qeyd edilib ki, davamlı sülhə nail olmaq üçün bir görüş kifayət deyil.

Görüşdə iştirak edən Rusiya Birbaşa İnvestisiya Fondunun rəhbəri Kiril Dmitriyev isə daha maraqlı bir məqama toxunub - o danışıqları "çox konstruktiv dialoq" və müzakirələrin müsbət başlanğıcı kimi qiymətləndirib. Rusiya Birbaşa İnvestisiya Fondunun rəhbərinin sözlərinə görə, Moskva ticari-iqtisadi sahədə əlaqələrin inkişafı üçün Vaşinqtona bir sıra təkliflər təqdim edib. O, konkret müddəaları və ya mahiyyəti açıqlamayıb, lakin qeyd edib ki, Rusiya və ABŞ Arktikada birgə layihələrlə məşğul ola bilərlər.

### Çin alqışlayır, Makron isə sabotaj edir...

Danışıqlara beynəlxalq münasibət də maraq kəsb edir. Məsələn, danışıqlar ərəfəsində Ukrayna Prezidenti Volodimir Zelenski bildirib ki, Kiyev münaqişənin həlli ilə bağlı Ər-Riyadda heç bir razılaşmanı tanımayacaq. "Bizim haqqımızda heç bir şeyi və ya razılaşmaları bizsiz tanıya bilmərik".

Danışıqlar ərəfəsində Fransa prezidenti Emmanuel Makron isə danışıqlar prosesini sabotaj edib - o bildirib ki, "Rusiya təcavüzünü dayandırmalıdır, Ukrayna etibarlı təhlükəsizlik zəmanəti almalıdır. Əks halda, bu atəşkəsin Minsk razılaşmaları kimi sona çatması riski var".

Çin Xarici İşlər Nazirliyi Ər-Riyadda danışıqların başlaması ilə bağlı bəyanat yayıb və bildirib ki, Pekin sülhün əldə edilməsinə yönəlmiş bütün səyləri alqışlayır.

### Tramp etiraf etdi: Rusiya istəsəydi, Ukraynanı darmadağın edərdi...

Donald Tramp da Ər-Riyaddakı danışıqların nəticələrini şərh edib - o, müzakirələri "çox yaxşı" adlandırıb və Ukraynada nizamlanma üzrə razılığın əldə olunmasının mümkünlüyünə daha inamlı olduğunu bildirib. Eyni zamanda Kiyevin mövqeyindən məyus olduğunu deyən Tramp xatırladıb ki, Ukraynanın danışıqlar masasına oturmaq üçün üç il vaxtı var. Prezident həmçinin vurğulayıb ki, o, Ukraynada seçkilərin keçirilməsini zəruri hesab edir, çünki Volodimir Zelenskinin əhali arasında dəstəyi azdır. Onun fikrincə, danışıqlar prosesinə bir neçə il əvvəl başlanılsaydı, böhran Ukrayna üçün ərazi itkiləri olmadan həll edilə bilərdi.

"Fox News" yazır ki, Tramp münaqiə ilə bağlı maraqlı bir fikir işlədib: "Rusiya ən az bir müddətdə Ukrayna şəhərlərini, o cümlədən Kiyevi 100 faiz məhv edə bilərdi, amma Moskva bunu etmək istəmir. Əgər o bunu etmək istəsəydi, yəqin ki, çoxdan edərdi".

Maraqlıdır ki, Tramp rusiyalı həmkarı ilə fevralın sonuna qədər görüşə biləcəklərini də istisna etməyib. Buna cavab olaraq Rusiya prezidentinin sözcüsü Peskov da bəyan edib ki, Putin amerikalı həmkarı ilə heç bir şərt olmadan görüşməyə hazırdır.

### Kim qazandı, kim itirdi?

Yeni nizamın ən mühüm amillərindən birinə çevriləcək Ər-Riyad görüşü özlüyündə bəzi faktları tam şəkildə ortaya qoyur. Bu görüş sadəcə ABŞ-Rusiya danışıqları kimi məhdudlaşmır. Görüş əslində XXI əsrin yeni siyasi qütbləşməsini təyin və təmin edir. Bu fakt bir daha onu göstərir ki ABŞ addımlarında bəzi planlar cızıb, strategiya hazırlayıb:

- Yeni nizam qaydalarını "döyüşsüz" təyin etmək niyyətindədir. Bu bir daha Tramp komandasında maliyyə blokunun Pentaqonu əvəz edəcəyi haqda deyilənləri təsdiqləyir;

- Mühafizəkar qanad dünyanı "yeni tərzli müharibə" sınağı ilə üz-üzə qoymaq istəmir;

- Müttəfiqlərin seçimində ənənələrə sədaqət nümayiş etdiriləcək;

- ABŞ-ın əsas inkişaf dövrü sayılan XX əsrin ikinci yarısının hədəfləri aktuallaşır.

Rusiya üçün isə:

- Növbəti dəfə Avrasiya məkanındakı yerini dəqiqləşdirdi;

- Aİ üzərində "Domokl qılıncı" olmaqda davam edəcəyini qarşı tərəfə izah etdi;

- Avropanın yeni təhlükəsizlik arxitekturasının qurulmasında iştirakını labüdləşdirdi;

- Qlobal iqtisadi amillərin təyin edilməsində iştirak "icazəsi aldı (baxmayaraq ki, hələlik sanksiyalar öz qüvvəsindədir, çox güman ki, Tramp Aİ-yə nisbətdə bu sanksiyaların maksimum gözardı edilməsinə nail olacaq).

Və nəhayət Avropa İttifaqına gəldikdə isə burada pessimist notlar daha çox qabarıq şəkildə hiss olunur. İllərdir ki, israrla bildirilən "Aİ döyüşsüz məğlub olmağa məhkumdur" tezisi öz təsdiqini tapır:

- Brüssel açıq seytnot vəziyyətinə düşüb və çıxış yolunu tapa bilmədiyi ortadadır;

- "Qış yuxusu"ndan ayılıb və meydanda köməksiz qaldığının fərqindədir;

- ABŞ-ın vəd etdiyi alternativ enerji məsələsi öz həllini tapmır;

- Həm Qərbdə, həm də Şərqdə fiaskoya uğrayıb;

- Və son olaraq, Avropa özünü 100 ildən sonra üçüncü dəfə Rusiya qarşısında məğlub hiss edir - bu dəfə də ABŞ oyunun "ikinci hissəsində" dəyişiklik etməklə nəticəyə təsir göstərdi...

*P.SADAYOĞLU*

# AZƏRBAYCAN ARXEOLOGİYASI: KÖHNƏ PROBLEMLƏR, YENİ ÇAĞRIŞLAR, PRİORİTET HƏDƏFLƏR

**1. Azərbaycan - açıq səma altında təbii muzey**

"Arxeologiya" "arxayos"- qədim, "loqos" - elm mənasını bildirən iki yunan sözünün birləşməsindən əmələ gəlib və qədim tarixi öyrənən elm deməkdir. Amma arxeologiyanın bir elm olaraq yaranma tarixi o qədər də qədim deyil. Başqa sözlə, arxeologiya tarixin nisbətən son dönəmində yaranan və çox sürətlə inkişaf edən elm sahələrindəndir. XIX əsrin sonu - XX əsrin əvvəllərində arxeologiyanın bir elm olaraq məhz hansı elmlər qrupuna aid edildiyi hələ də polemika mövzusu idi. Bəziləri onu antropologiya ilə birlikdə bioloji elmlər qrupuna, digərləri isə incəsənət tarixi ilə birlikdə incəsənət elmləri qrupuna aid edirdilər. Arxeologiyanın dəqiq və ya humanitar elmlərə aidliyi ətrafında diskussiya açanlar da az olmayıb. Amma hər cür fikir ayrılıqlarına rəğmən son və qəti sözü də elə arxeoloqlar özləri dedilər. Yəni, dünyanın ayrı-ayrı nöqtələrində arxeoloji tədqiqatlar elə vüsət aldı ki, artıq bu elmin ictimai elmlər sırasındakı yeri daha heç kəs üçün polemika mövzusu olmadı.

Məlum olduğu kimi, bəşər tarixi iki qrupdan olan mənbələr əsasında öyrənilir: 1. Maddi mədəniyyət nümunələri. 2. Yazılı mənbələr. Maddi mədəniyyət nümunələri o mənbələrdir ki, məhz onlar əsasında arxeoloqlar tarixi öyrənirlər. Onu da xatırladaq ki, yazılı qaynaqlar əsasında Azərbaycan tarixinin olsa-olsa son 2000 illik tarixini qismən öyrənmək mümkündür. Halbuki, yazılı mənbələrdəki bir sıra məlumatların özü də kifayət qədər səhih deyil. Deməli, yazılı qaynaqların qədim tariximizlə bağlı məlumatları da ancaq və ancaq arxeoloji tədqiqatlarla təsdiqləndiyi halda ciddi elmi istinad nöqtəsi hesab edilə bilər.

Təsəvvür edin, yazılı qaynaqların nisbətən daha geniş yayıldığı orta əsrlər dövrünün tarixini belə arxeoloji materiallarsız tam və əhatəli şəkildə öyrənmək mümkün deyil. Yəni, arxeoloji tədqiqatlar olmadan əsrlər boyu ölkənin iqtisadi, siyasi və mədəni həyatında olduqca mühüm iştirakı olan, bir çox iri hərbi əməliyyatlara şahidlik etmiş şəhər və qalalarımızın tarixini necə və hansı səviyyədə öyrənə bilərdik?! Nəhayət, belə bir məqamı da qeyd edək ki, əsrlər boyu torpaq altında yatan qədim yazılı mənbələrin bir çox nümunələri də məhz elə arxeoloji tədqiqatlar zamanı tapılaraq elmi dövriyyəyə gətirilib. Müxtəlif vaxtlarda və müxtəlif yerlərdə arxeoloqların taparaq aşkara çıxarmış olduğu çoxsaylı daş, kağız, papirus, gil qablar, dəri və ağac nümunələri üzərində işlənmiş çox qiymətli kitabələr bəşər tarixinin bir sıra mühüm problemlərinin araşdırılmasında, sözün əsl mənasında, açar rolu oynamışdır. Deməli, yazılı mənbələrin mövcud olduğu dövrlərin də tarixini öyrənmək tarixçilərlə yanaşı, həm də arxeoloq alimlərin işidir.

Qürurverici haldır ki, ölkəmizin ərazisində yazıya qədərki və ondan sonrakı tariximizin bütün mərhələlərini tam şəkildə özündə yaşadan olduqca çoxsaylı maddi mədəniyyət abidələri şəbəkəsi mövcuddur. Bu, o deməkdir ki, əcdadlarımız sonrakı nəsillər üçün tarixin bütün mərhələlərinə aid olduqca zəngin mədəni irs qoyub getmişlər. Təsadüfi deyildir ki, Akademiyanın Tarix İnstitutunun ilk direktoru olmuş görkəmli tarixçi alim, akademik İ.İ.Meşşaninov hələ 75-80 il bundan öncə, yəni bir çox mühüm arxeoloji abidələrin yerinin hələ bəlli olmadığı dövrdə Azərbaycan ərazisini açıq səma altında zəngin təbii muzey adlandırıb.



*Qafar Cəbiyev,*
*AMEA Arxeologiya və Antropologiya İnstitutu İslam dövrü arxeologiyası şöbəsinin müdiri, tarix elmləri doktoru, professor*

Fəxr edirik ki, Azərbaycan ərazisi dünyada insanın ilkin olaraq məskunlaşdığı ərazilərdəndir. Fəxr edirik ki, ulu əcdadlarımız minilliklər boyu bu torpaqda məskunlaşaraq, dünya mədəniyyəti xəzinəsinə layiqli töhfələr bəxş etmişlər. Bəli, Azərbaycan xalqı ulu, həm də şərəfli tarixi keçmişi ilə fəxr etmək haqqı olan bir xalqdır!

**2. Tarixi-mədəni irsə münasibətin Heydər Əliyev nümunəsi**

Ulu Öndər Heydər Əliyevin tariximizin qədim dövrlərini özündə yaşadan arxeoloji abidələrə olan həssas və qayğıkeş münasibəti, bu sahədə biganəlik, səhlənkarlıq və prinsiplilik hallarına yol verənlərə, qanunsuz hərəkətlərin qarşısında sipər olmayanlara qarşı isə prinsipial və sərt mövqeyi nəsillərə örnək olası bir nümunədir. Təsəvvür edin, 1977-ci ilin sonlarında Mingəçevirdən Qəbələ RLS-ə çəkilən yüksək gərginlikli elektrik xətti ilkin layihəyə görə qədim Azərbaycan dövləti olan Albaniyanın paytaxtı Qəbələ şəhəri qalıqlarının olduğu ərazidən keçməli imiş. Bu isə geniş bir ərazidə abidənin dağıdılması, ondan daha geniş ərazinin isə elektrik xəttinin mühafizə zonasına düşməsi və gələcək tədqiqatlardan tam olaraq kənarda qalması demək idi. Təbiidir ki, arxeoloq alimlər buna etiraz ediblər. Hərbiçilər isə layihəni icra etməkdə israrlı idilər. Vəziyyətdən xəbər tutan Ulu öndər məsələni dərhal və hərtərəfli araşdıraraq Azərbaycan KP MK-nın büro iclasının müzakirəsinə çıxarıb, cavabdeh şəxslərə vəzifə səlahiyyətlərini icra edərkən yol verdikləri səhlənkarlığa, qətiyyətsizliyə və prinsipsizliyə görə ciddi partiya cəzası verilib. MK bürosunun qərarında qədim paytaxt şəhərimizin sel sularının dağıdıcı təsirindən qorunması, orada tədqiqatların intensivləşdirilməsi və abidənin Dövlət Qoruğu elan olunması məsələləri də öz əksini tapıb.

**3. Arxeoloji irsin yaşadılmasına dövlət təminatı**

Etiraf edək ki, Azərbaycan dövləti ölkə ərazisindəki abidələrin arxeoloji cəhətdən öyrənilməsi, onların qorunması və təbliği üçün nə lazımdırsa hamısını edib və bu gün də etməkdədir. Uzun illərdir ki, ali məktəblərimizin tarix fakültələrində arxeologiya müstəqil fənn kimi tədris olunur. Bakı Dövlət Universitetində arxeologiya kafedrası, AMEA-nın tərkibində isə Arxeologiya və Antropologiya İnstitutu fəaliyyət göstərir. Milli Azərbaycan Tarixi Muzeyi, Arxeologiya və Antropologiya İnstitutu nəzdindəki Arxeologiya Muzeyi, habelə respublikanın bütün şəhər və rayonlarında fəaliyyət göstərən tarix-diyarşünaslıq muzeylərinin ekspozisiya və fondlarında yüz minlərlə arxeoloji material mühafizə və nümayiş olunmaqdadır. Hər il arxeologiya ixtisası üzrə neçə-neçə istedadlı gənc doktorantura və dissertanturaya qəbul olunur. Azərbaycanda arxeologiya ixtisası üzrə fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcəsi almaq üçün müvafiq dissertasiya şuraları fəaliyyət göstərir. Hansı ki, hər il həmin şuralar vasitəsi ilə neçə-neçə elm adamı öz dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək alimlik dərəcəsi alır.

Diqqətəlayiq haldır ki, hər il ölkəmizdə arxeoloji tədqiqatların aparılması üçün kifayət qədər sanballı büdcə ayrılır, geniş ərazilərdə arxeoloji tədqiqat işləri aparılır. Son illər arxeoloji ekspedisiyaların maddi-texniki təminatı və maliyyə təchizatı da əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır. Hər il büdcədə nəzərdə tutulan ayırmalarla yanaşı zərurət olduğu hallarda ölkə Prezidenti və respublika hökuməti tərəfindən də bu məqsədlə əlavə maliyyələr ayrılır.

**4. Arxeoloji irsə həssas və qayğıkeş münasibətin İlham Əliyev nümunəsi**

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş uğurlu dövlətçilik siyasətinin möhtərəm cənab Prezidentimiz tərəfindən bütün istiqamətlər üzrə çox böyük müvəffəqiyyətlə davam etdiridiyinə indi təkcə Azərbaycan xalqı deyil, bütün dünya şahidlik etməkdədir. Dərin məmnunluq hissi ilə deməliyik ki, Ulu Öndər tərəfindən tarixi-mədəni irsimizə həssas və qayğıkeş münasibət bu gün cənab Prezidentimiz tərəfindən də uğurla davam etdirilməkdədir. Təsəvvür edin, 44 günlük Zəfər müharibəsi bitəndən az sonra, daha dəqiq desək 15 mart 2021-ci il tarixdə cənab Prezident ailə üzvləri ilə birlikdə işğaldan yenicə azad olunmuş Azıx mağara düşərgəsini ziyarət etdi. Tarixi-mədəni irsə həssas münasibət baxımından ölkənin bütün səviyyələrdən olan məmur korpusu üçün bundan daha yaxşı və daha təsirli nümunə ola bilərdimi?! Amma cənab Prezidentin Azıxa səfərinə qədər görün nə baş vermişdi?! 1994-cü ildə Azıxın dünyaşöhrətli tədqiqatçısı, professor Məmmədli Hüseynovun rəhbərliyi ilə orada aparılmış kompleks tədqiqatların nəticələrinə həsr olunmuş "Azıx - SSRİ ərazisində ən qədim paleolit düşərgəsi" adlı fundamental əsərin əlyazması AMEA-nın o zamankı Arxeologiya və Etnoqrafiya İnstitutunda seyflərdə gizlədilərək nəşrinə imkan verilmədi. Sanki Qarabağ kimi o əsər də işğal altına düşmüşdü.Dəhşət ondadır ki, İnstitut rəhbərliyi də, AMEA rəhbərliyi də, lap elə onlardan daha səlahiyyətli qurumların bəzi səlahiyyətli nümayəndələri də həmin əlyazmanın kimin seyfində yatdığını və niyə nəşr olunmadığını bildikləri halda onlar da susurdular. Çünki həmin məsul şəxslərin özlərinin də fəaliyyətində buna bənzər kölgəli məqamlar vardı. Nə qədər təəccüblü olsa da, o illər ərzində bu məsələ ilə bağlı AMEA rəhbərliyinə, aiddiyyəti digər rəsmi qurumlara müraciətlərim tam olaraq sükutla qarşılandı. Ədalət naminə etiraf etməliyəm ki, yalnız bir nəfər, o zaman Prezident Administrasiyasının Multikulturalizm şöbəsinin müdiri akademik Kamal Abdulladan institut rəhbərliyinə sərt təpki gəldi. Lakin bundan sonra da həmin əsərin nəşri təmin olunmadı. Amma görün cənab Prezidentin Azıxı ziyarətindən sonra vəziyyət necə dəyişdi?! Mart ayının 18-də mənim tərəfimdən bu məsələnin ictimailəşdirməsi ilə hamı bir-birinə dəydi, 28 illik sükutdan sonra Qarabağ tarixinə dair indiyədək qələmə alınmış ən sanballı elmi əsər, nəhayət ki, işıq üzü gördü.

Müstəqillik illərində Azərbaycanda dövlət tərəfindən tarixi-mədəni irsə münasibətdə çox qabarıq şəkildə müşahidə edilən müsbət dinamikanı əks etdirən çoxsaylı digər misallar da göstərə bilərik. Ağdamda "İmarət" kompleksi, Şuşanın yaraşığı olan küçələri, meydanları və tarixi binaları, Gəncədə və Şəkidə həyata keçirilən iritutumlu tədqiqat, bərpa və konservasiya layihələri, Şamaxıda Pirsaat Xanəgahı, Şahxəndan türbəsi, Pir Ömər Sultan ziyarətgahı, Kələxana türbələr kompleksi, Qobustan rayonunda Diri-Baba türbəsi, Bakıda İçərişəhər, Atəşgah, Qala kompleksi və böyük Basqal layihəsi çərçivəsində görülən yaddaqalan işlər bunlara bariz misal ola bilər. Bu yerdə Azərbaycan Respublikası Prezidentinin arxeoloji tədqiqatların miqyasını artırmaq və keyfiyyətini yüksəltmək məqsədilə ayrı-ayrı vaxtlarda imzalamış olduğu sərəncamları xüsusi olaraq qeyd etmək istərdim.

Sevindirici haldır ki, son illər tarixi-mədəni irsin arxeoloji cəhətdən tədqiqi və konservasiya işinə qeyri-hökumət təşkilatlarının və bəzi xeyriyyəçi insanların da töhfə verdiyinin şahidi olmaqdayıq. Əlbəttə ki, bu sahədə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbəri olduğu Heydər Əliyev Fondu tək Azərbaycanda deyil, artıq bütün dünyada tarixi-mədəni irsin himayəçisi kimi son dərəcə şərəfli bir imic sahibinə çevrilib.

Bir sözlə, bu gün Azərbaycanda arxeoloqların yaxşı və səmərəli işləməsi, əhəmiyyətli elmi nəticələr əldə etməsi üçün hər cür şərait yaradılıb.

**5. Problem nədədir?!**

Azərbaycan Respublikası Konstitusiyasının 40-cı maddəsində göstərildiyi kimi, ölkəmizdə "Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır". Lakin təəssüf hissi ilə onu da bildirməliyik ki, bir sıra hallarda müvafiq dövlət orqanlarının və ayrı-ayrı vəzifəli şəxslərin biganəliyi və səhlənkarlığı üzündən hələ də bu sahədə qanunvericiliyin tələblərinin kobud surətdə pozulduğu hallarla rastlaşırıq. İnşaat və təsərrüfat işləri zamanı arxeoloji abidələrin dağıdılması hallarına xüsusilə tez-tez rast gəlinir. Bu da, hər şeydən öncə, iki səbəbdən baş verir. Birincisi, ölkə ərazisindəki arxeoloji abidələrin qeydiyyata alınması, inventarlaşdırılması, onların mühafizə zonasının müəyyənləşdirilməsi işi hələ də tələb olunan səviyyədə deyil. Yəni, geniş ictimaiyyət bir yana qalsın, hətta bir çox yerli hakimiyyət orqanları belə hələ də onların xidməti ərazisində konkret olaraq hansı arxeoloji abidələr olduğu barədə yetərincə məlumatlı deyil. Bu səbəbdən də yerlərdə torpaq islahatı həyata keçirilərkən bir çox mühüm əhəmiyyətli arxeoloji abidələr pay torpaq sahəsi kimi vətəndaşların xüsusi mülkiyyətinə verilmişdir. Əfsuslar olsun ki, bir çox hallarda vətəndaşlar həmin torpaqlardan istifadə zamanı üzə çıxan və tariximiz üçün son dərəcə əhəmiyyətli olan tapıntılar barədə aidiyyatı orqanlara məlumat vermirlər. Halbuki, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununun 13-cü maddəsində göstərildiyi kimi "İnşaat və digər təsərrüfat işləri görülərkən abidə aşkar edilərsə, dərhal iş dayandırılmalı, bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilata məlumat verilməlidir".

Təəssüf hissi ilə onu da bildiririk ki, uzun illər ərzində elmi tədqiqatlar yolu ilə toplanan, habelə təbii dağıntılar, inşaat və təsərrüfat işləri zamanı üzə çıxan və tariximizin bütün dövrlərinin daha dərindən və hərtərəfli araşdırılması üçün nadir mənbəşünaslıq bazası olan yüz minlərlə maddi mədəniyyət nümunəsi indiki halda dağınıq və pərakəndə vəziyyətdə saxlanılmaqdadır. Bu səbəbdən də hətta arxeologiya sahəsində çalışan gənclərin də bir çoxu 60-70 il öncə Gəncə, Mingəçevir, Beyləqan, Xınışlı, Qəbələ və digər arxeoloji ekspedisiyaların materiallarının harada və hansı şəraitdə saxlanıldığından xəbərsizdirlər.

Son 30 ildə Arxeologiya və Antropologiya İnstitutunun arxeologiya fondu 5 dəfə müxtəlif ünvanlara köçürülüb. Üst-üstə qalaqlanmış qutulardakı tapıntıları boşaldaraq yerbəyer etməmiş, fondun başqa ünvanlara köçürülməsinə qərar verilib. Halbuki əksəriyyəti fraqmentlər halında tapılan və çox çətinliklə konservasiya və bərpa olunan arxeoloji materiallar, xüsusən də dəmir, keramika, şüşə, sümük və toxuculuq məmulatı nümunələri sadəcə yerindən tərpədildikdə belə dağılıb məhv olmaq təhlükəsi yaranır. İndi təsəvvür edin, bu qəbildən olan on minlərlə tapıntını vaxtaşırı ayrı-ayrı ünvanlara daşıyarkən nələr baş verə bilər?! Əlbəttə, heç istəməzdik ki, bu "praktika" nə vaxtsa bir daha təkrar olunsun. Arayış üçün onu da əlavə edim ki, hər il arxeoloji ekspedisiyalar təqribən daha 6-7 min ədəddən çox elm üçün nadir hesab olunan yeni eksponat da ölkənin arxeoloji fond bazasına əlavə olunur. Bu, o deməkdir ki, yalnız müstəqillik illərində Azərbaycan arxeoloqları tərəfindən ən azı 20-25 min ədəd nadir tarixi əhəmiyyəti olan eksponat aşkar edilərək qeydiyyata alınıb. Bu isə o deməkdir ki, mövcud muzey və fondlar da artıq dolub. Yəni, yeni tapıntıların lazımi səviyyədə qəbulu və nümayişi imkanları demək olar ki, tam olaraq tükənib.

Arxeologiya və Antropologiya İnstitutunun və Milli Azərbaycan Tarix Muzeyinin arxeologiya fondlarının darısqal və münasib olmayan zirzəmi tipli məkanlarda yerləşməsi səbəbindən uzun illərdir ki, bir çox arxeoloji ekspedisiyaların materialları Bakıya gətirilməyərək elə rayonlarda saxlanılır. Gəlin, görək rayonlarda o tapıntıların saxlanması, mühafizəsi və elmi cəhətdən işlənməsi üçün münasib şərait varmı?!

Son illər tarix və arxeologiyaya əsla dəxli olmayan digər peşə sahələrindən olan diletant insanların arxeologiyaya sahəsinə axını müşahidə olunur. Baza təhsili istiqamətində heç bir uğuru olmayan ayrı-ayrı şəxslər müxtəlif vasitə və yollarla Arxeologiya və Antropologiya İnstitutuna yerləşdirilib və çox keçmədən "alimlər" cərgəsinə qoşulublar. Belələrinin tələm-tələsik ona-buna yazdırdıqları başdan-başa saxta, plagiat və mənasız "elmi işlər" axı kimə lazımdır? Əlbəttə, uzun illərdir ki, Arxeologiya və Etnoqrafiya İnstitutunda hökm sürməkdə olan qeyri-sağlam elmi mühitin yaranmasında, problem və nöqsanların artan dinamika ilə "inkişafı"nda AMEA rəhbərliyi birbaşa günahkardır. O AMEA rəhbərliyi ki, zamanında kadrların seçilməsində, onların fəaliyyətinə nəzarətdə çox ciddi səhvlərə yol verib. İllərdir ki, davam edən arzuolunmaz mühitlə bağlı elm adamlarının müraciət, təklif, təşəbbüs və etirazları qulaq ardına vurulub. O AMEA rəhbərliyi ki, bu gün də institutların fəaliyyətini effektli şəkildə koordinasiya edə bilmir. Axı, qeyri-peşəkar heyətdən ibarət olan, illərdir ki, tərkibində bir nəfər belə tarixçi və ya arxeoloq alimin təmsil olunmadığı AMEA-nın Rəyasət Heyəti və İctimai elmlər bölməsi Tarix, Arxeologiya və Antropologiya institutlarının fəaliyyətini necə koordinasiya edə bilər?!

**6. Nədən başlamalı və nələri etməli?!**

Yuxarıda qeyd olunan problemləri aradan qaldırmaqla Azərbaycanda arxeologiya elminin inkişafını təmin etmək, tarixi-mədəni yadigarların olduğu kimi, yəni dağıntısız və itkisiz şəkildə gələcək nəsillərə ötürülməsi üçün qarşıda duran ən ümdə vəzifələr bunlardır:

1. Təxirəsalınmadan respublika ərazisində mövcud olan bütün arxeoloji abidələrin müfəssəl uçotu və qeydiyyatı aparılmalı, onların mühafizə zonası müəyyənləşdirilməli, pasportlaşdırılmalı, müvafiq xəritələr işlənməli və nəhayət, onların mühafizəsi təşkil olunmalıdır. Yəni, aidiyyatı dövlət orqanları və müvafiq elmi idarələr Azərbaycan Respublikası Konstitusiyasından, habelə "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn vəzifələrini tələb olunan səviyyədə icra etməlidirlər.

2. Torpaq islahatı zamanı naşılıq, məsuliyyətsizlik və ya başqa bir səbəb ucbatından vətəndaşların şəxsi mülkiyyətinə verilmiş ərazilərdə aşkar olunmuş xüsusilə mühüm əhəmiyyətli arxeoloji abidələrin taleyinə aydınlıq gətirilməlidir. Həmin abidələrin ərazisi heç bir halda ağır texnikadan istifadə olunmaqla qazıla və ya şumlana bilməz.

3. Fikrimizcə, respublikanın ayrı-ayrı muzey və fondlarında, şəxsi kolleksiyalarda pərakəndə halda, həm də münasib olmayan şəraitdə saxlanılmaqda olan zəngin arxeoloji tapıntıları bir yerə toplamaqla Azərbaycanda vahid mərkəzləşdirilmiş arxeoloji fond və arxeologiya muzeyinin yaradılmasının da vaxtı çatmışdır.

4. Arxeoloji abidələrin tədqiqinin başa çatdırılmasından sonrakı taleyi barədə də düşünməyə dəyər. Bizcə, konservasiya təminatı olmayan abidələrin tədqiqi hələlik təxirə salınsa yaxşıdır. Bu mənada arxeoloji tədqiqatların prioritet istiqamətlərinə yenidən baxmaq zərurəti gündəmdə olan məsələlərdəndir. Dağınıq, epizodik və məhəlli xarakter daşıyan və əslində, ciddi elmi məqsəd və nəticələrə hesablanmayan 3-4 nəfərlik heyətdən ibarət çoxsaylı xırda ekspedisiyalar əvəzində multidisciplinar tərkibdən ibarət kompleks arxeoloji ekspedisiyaların təşkili praktikasına üstünlük verilməlidir.

5. Arxeoloji tədqiqatların səmərəsini artırmaq, bütövlükdə respublikada arxeologiya elminin inkişafını təmin etmək naminə AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun strukturunun təkmilləşdirilməsi, elmi kontingenti peşəkar olmayanlardan və uzun illər ərzində elmə heç bir fayda gətirməyən kadrlardan təmizlənməsi, arxeologiyaya dair əsərlərin və dissertasiyaların elmi səviyyəsinin qaldırılması, bu sahədəki səthilik, başdansovduluq, qeyri-peşəkarlıq və xalturaçılıq kimi neqativ halların qarşısının alınması istiqamətində təsirli tədbirlər görülməldir. Elmi Şuralar və Problem Şuraları tərəfindən dissertasiya mövzuları müəyyənləşdirilərkən mütləq surətdə Azərbaycan arxeologiya elminin prioritetləri əsas götürülməlidir.

6. Azərbaycan artıq müstəqil dövlətdir. Təbiidir ki, bütün digər sahələrdə olduğu kimi, təhsil sahəsində də ölkənin milli maraqları daim nəzərə alınmalıdır. Etiraf edək ki, ali təhsil ocaqlarımızda arxeologiya fənninin tədrisi vəziyyəti bu sahədə xeyli problemin olduğundan xəbər verir. Odur ki, birinci növbədə ali məktəblərdə təhsilin həm bakalavr, həm də magistr pilləsi üçün qüvvədə olan arxeologiya fənninə dair tədris proqramları tam olaraq yenidən işlənməlidir. Ali məktəblərdə arxeologiyaya ayrılan saatlar əhəmiyyətli dərəcədə artırılmalıdır. Təsəvvür edin, bildiyimə görə bu gün Azərbaycan ali məktəblərinin tarix fakültələrinin bakalavr pilləsində arxeologiya fənninə cəmi 60 saat (30 saat mühazirə, 30 saat seminar) verilir. Həmin dərs yükü çərçivəsində, guya arxeologiyaya dair hər şey öyrədilir. Əslində, bu, reallıqla əsla səsləşməyən bir yanaşmadır. Fikrimizcə, bu praktikaya son qoyulmalı və arxeologiya fənninin tədrisi müstəqil dövlətin milli maraqlarına cavab verən səviyyədə aparılmalıdır.

7. Nəhayət, arxeologiya ixtisaslı keyfiyyətli kadrlar hazırlamaq məqsədilə fəaliyyətdə olan dövlət ali məktəblərindən birində arxeologiya fakülətisinin açılması barədə düşünmək də pis olmazdı.

Vətənin qədim, zəngin tarixini dərindən və hərtərəfli öyrənmək Azərbaycan arxeologiya elminin başlıca hədəfidir. Alim üçün belə bir nəcib və vacib missiyaya xidmət etməkdən daha şərəfli nə ola bilər?! Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Müstəqil Azərbaycanda fizika, riyaziyyat, bilogiya, kimya, yaxud başqa fənlərin hamısı inkişaf etməlidir. Bunların hərəsinin özünəməxsus çərçivəsi var. Amma tarix hər bir insan üçün yeniyetməlikdən başlayaraq ömrünün sonuna qədər lazımdır".

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressInform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN





# Cəbrayıla 12-ci köç!

## Sakinlərin sayı 2037 oldu...

Hər keçən gün keçmiş məcburi köçkünlərimizin vətən həsrəti sona çatır. Bir zamanlar doğma yurdlarından didərgin düşmüş vətəndaşlarımız hissə-hissə dədə-baba torpaqlarına qayıdırlar. “Böyük Qayıdış” planı çərçivəsində işğaldan azad edilmiş ərazilərimizdə bərpa-quruculuq işləri sürətlənir. Bu gün öz sakinlərini yeni bir ab-hava ilə qarşılayan şəhərlərimizdən biri də Cəbrayıldır.

### 13,928 milyard ABŞ dolları həcmində ziyan

Dörd il bundan əvvəl 27 il işğalda olan Cəbrayıl şəhəri azadlığına qovuşdu. Xatırladaq ki, Cəbrayıl şəhəri və rayonu 1993-cü il avqustun 23-də işğal edilmişdi. İşğal vaxtı Cəbrayıl rayonu 1 şəhər, 4 qəsəbə və 97 kənddən ibarət idi. İşğal nəticəsində Cəbrayıl rayonuna 13,928 milyard ABŞ dolları həcmində maddi ziyan dəyib, mənəvi ziyanı ölçmək isə mümkün deyil... Cəbrayıllı məcburi köçkünlər respublikamızın 58 rayonu üzrə 2 minədək yaşayış məntəqəsində, eləcə də qaçqın düşərgələrində, yük vaqonlarında və yataqxanalarda məskunlaşmışdı. İşğala məruz qalarkən rayonun 52 min nəfər əhalisi olub. Cəbrayıldan Birinci Qarabağ müharibəsində 362 nəfər şəhid, 191 nəfər əlil olub. Rayonun 6 sakini Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

1050 kvadratkilometri əhatə edən Cəbrayıl rayonunun ərazisi, o cümlədən 100-ə yaxın kənd, 72 ümumtəhsil məktəbi, 150 mədəniyyət ocağı, 132 tarixi abidə işğal vaxtı vəhşicəsinə talan edilib, dağıdılıb.

Cəbrayılda mədəniyyət, elm-təhsil, maarif mühiti kifayət qədər zəngin idi. Rayonda 3 musiqi məktəbi, 12 mədəniyyət evi, 32 klub, 10 mədəni çadır və avtoklub, 78 kitabxana və 1 muzeydə 508 mədəniyyət işçisi, 72 məktəbdə 1660 nəfərdən çox müəllim çalışıb. Rayon Tarix-Diyarşünaslıq Muzeyində 20 mindən çox eksponat olub.

Qeyd edək ki, Cəbrayılın yaşayış məntəqəsi kimi tarixi 8-ci əsrə bağlanır. 1930-cu ildə inzibati mərkəzi olan Cəbrayıl rayonu yaradılıb və şəhər də məhz həmin illərdə formalaşmağa başlayıb. Şəhərin ilk Baş planı 1984-cü ildə işlənilib. O zaman şəhərin ərazisi 258 hektar, əhalinin sayı 5200 nəfər idi.

### Cəbrayıl yeni dövrünü yaşayır...

Azərbaycanın Ermənistan üzərində qələbə qazanmasından sonra qısa bir zamanda azad olunan ərazilərimizdə bərpa-təmir, abadlıq və quruculuq işlərinə start verildi. Bildiyimiz kimi, işğal altında saxlanılan ərazilərimizdə dağıdılan yaşayış məntəqələri, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılıb, tarixi-mədəniyyət və dini abidələrimizə ciddi ziyan dəyib, fərdi və çoxmənzilli yaşayış evləri məhv edilib. Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı neçə əsrlik tarixi olan yeraltı və yerüstü sərvətlərimizə qarşı olan vandallıq əməlləridir. Bu gün artıq ərazilərimizdə intensiv şəkildə bərpa və yenidənqurma işləri həyata keçirilir, Azərbaycan öz ərazilərini bərpa edir. Ordumuz tərəfindən azad edilən Cəbrayıl şəhəri yeni dövrünü yaşayır. Dağıdılmış əraziləri yenidən qurmaq böyük güc, potensial və zaman tələb edir. Ölkəmizdə yenidənqurma, abadlıq və quruculuq işlərinin aparılması məqsədi ilə bütün güclər səfərbər olunub və işğaldan azad edilən ərazilərdə yeni işıqlı həyata başlanılıb. Cəbrayılda çoxsaylı bərpa və quruculuq işləri görülüb və bu işlər yenə də sürətlə davam etməkdədir.

### Cəbrayıla qayıdışın tarixləri...

Xatırladaq ki, Cəbrayıl şəhərinə ilk köç prosesi 26 sentyabr 2024-cü il tarixində gerçəkləşmişdi. Bu mərhələdə 36 ailə olmaqla, 117 nəfər doğma torpağına qovuşdu. Cəbrayıla 2-ci köç sentyabrın 28-i (41 ailə, 124 nəfər), 3-cü köç sentyabrın 30-u (40 ailə, 123 nəfər), 4-cü köç noyabrın 7-i (30 ailə, 150 nəfər), 5-ci köç noyabrın 29-u (40 ailə, 200 nəfər), 6-cı köç dekabrın 2-si (34 ailə, 129 nəfər), 7-ci köç 25 dekabr 2024-cü il (49 ailə 253 nəfər), 8-ci köç 13 yanvar 2025-ci il (39 ailə, 165 nəfər), 9-cu köç 16 yanvar 2025-ci il (32 ailə, 153 nəfər), 10-cu köç 18 yanvar 2025-ci il (42 ailə, 206 nəfər), 11-ci köç isə 17 fevral 2025-ci il (42 ailə, 205 nəfər) tarixlərində baş tutub.



### Daha 37 ailə yola salındı

Ötən gün isə Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq yenidən qurulan Cəbrayıl şəhərinə növbəti -12-ci köç karvanı yola salınıb. Bu dəfə Cəbrayıla 37 ailə (212 nəfər) köçürülüb. Beləliklə, Cəbrayıl şəhərinə köçürülən ailələrin ümumi sayı 462-yə (2037 nəfər) çatıb.

*Yeganə BAYRAMOVA*

# Ədalətli və təhlükəsiz dünya!

**Dünyaya fateh olmaz zülmkarlıq, rəzalət,**
**Yer üzünün fatehi ədalətdir, ədalət!**
**Ədalətin müjdəsi bu dünyanı şad eylər,**
**Ədalətin işidir-ölkəni abad eylər.**
***Nizami Gəncəvi***

Bərabər hüquqlar, həmrəylik və insan haqlarına hörmət hər bir millətin tərəqqisi üçün vacibdir. Məlumdur ki, sosial ədalət cəmiyyətin əsas göstəricilərindən biri hesab olunur. Hansı cəmiyyətdə sosial ədalət mövcudursa, o cəmiyyətdə insan amilinə diqqət və qayğı da böyükdür. Təbii ki, sivil bir dünyada yaşamış olsaq da, sosial ədalət prinsipinə bir çox ölkələrdə əməl olunmur. Belə ki, dünyanın bir qismi üçün bu anlayış əlçatmazdır. Demokratik dəyərlərə malik, mütərəqqi dövlətlərdə sosial ədalətə təsadüf olunur. Hüquq bərabərliyinin və insan hüquqlarının pozulması isə cəmiyyətdə xoşagəlməz hallarla insanları üzüzə qoyur.




**Qanunilik və ədalətlilik eyni anlayışdır**

Görkəmli yunan filosofu Sokrat ədaləti “sözə sədaqət” formulunda qiymətləndirərək qeyd edirdi ki, qanunilik və ədalətlilik eyni şeylərdir. Bəli, ədalətin mövcudluğunun əsas şərti cəmiyyətdə təhlükəsizliyin və asayişin təmin edilməsidir. Sokrat ədalət məfhumu haqqındakı fikrinin qısa izahını belə verir: “Ədalət hər bir kəsin öz işi ilə məşğul olması və ona aidiyyəti olmayan məsələlərə qarışmamasıdır”. Bu da özlüyündə maraqlı bir tarixi yanaşmadır.

**Ən yüksək fəzilətlərdən biri...**

Qədim yunan filosofu Platon da ədaləti ictimai həyatın əsl prinsipi hesab edirdi. Onun üçün ədalət yaxşılıq, həmçinin qanunlara tabe olmaq istək, arzu deməkdir. O, yazırdı ki, ədalət ən yüksək fəzilətlərdən biridir.

**İctimai həyatın məntiqiliyi**

Konkret reallığa əsaslanan ədalətin ən mühüm tərifi isə Aristotel tərəfindən verilib. Aristotelə görə ədalət bərabərliyə əsaslanmalı və ictimai həyatın məntiqiliyi olmalıdır. Beləliklə, ədalət hər kəsə haqq etdiyini onun layiq olduğu dərəcədə verməkdir. O, ədalət anlayışının konkret tərifini belə verir: “Ədalət insanlara düzgün, ədalətli olanı etməyə və doğru, ədalətli şeylər istəməyə imkan verən xasiyyətdir”.

**Həmrəylik və bərabər imkanlar üçün...**

Yeri gəlmişkən, fevralın 20-si Dünya Sosial Ədalət Günüdür. Bu əlamətdar gün BMT-nin Baş Məclisi tərəfindən dünya ictimaiyyətinin yoxsulluqla mübarizə işində səylərini artırmaq və hər kəs üçün iş yerləri, gender bərabərliyi və insan hüquqlarına hörmətə nail olmaq məqsədi ilə yaradılıb. Müasir dünya cəmiyyətlər daxilində və cəmiyyətlərarası həmrəylik, harmoniya və bərabər imkanlar aşılamaq üçün yoxsulluq, ayrı-seçkilik və işsizliklə məşğul olmağın əhəmiyyətini dərk edir. Daha sabit, ədalətli və təhlükəsiz dünya qurmaqda sosial ədalətin vacibliyi əsas məsələlərdəndir. Hər kəs üçün sosial ədalətə nail olmaq naminə BMT-nin əsas məqsədi inkişaf və insan ləyaqətini yaymaqdır. 2009-cu ildə fəaliyyətə başlamış Sosial Müdafiə Təşəbbüs Platforması hər kəs üçün əsas sosial zəmanət əldə etmək naminə ümumi prioritetlər müəyyənləşdirən bir BMT sistemidir.

**Azərbaycan dünya üçün nümunədir**

Bütün dünya ölkələri ilə yanaşı, Azərbaycanda da Sosial Ədalət Günü qeyd olunur. Sosial ədalətə nail olmaq üçün ölkəmizdə həyata keçirilən islahatları xüsusilə vurğulamalıyıq. Həyatımızın bütün sferalarını əhatə edən islahatlar öz nəticəsini verib. Dünya birliyinə sürətlə inteqrasiya olunaraq demokratik inkişaf yolunda atdığı ardıcıl addımlarla regionda nüfuz sahibinə çevrilən Azərbaycanın qısa zamanda əldə etdiyi böyük nailiyyətlər ilk növbədə vətəndaşların mənafeyinə xidmət edir. Ölkəmizin maliyyə imkanlarının güclənməsi regionların sosial-iqtisadi inkişafına, eləcə də insanların sosial rifah halının daha da yaxşılaşdırılmasına səbəb olub.

*Yeganə BAYRAMOVA*

# Demokratiyanın başlıca prinsiplərindən biri

## Azərbaycanda ifadə azadlığına heç bir məhdudiyyət yoxdur

Demokratiyanı dərinləşdirən, siyasi inkişafa təkan verən qüdrətli vasitələrdən biri olaraq mətbuatı xüsusilə vurğulamalıyıq. Sivilizasiya inkişaf etdikcə, cəmiyyətin və dövlətin idarə olunması təkmilləşdikcə artıq azad söz daşıyıcısı sayılan mətbuatın sərbəst və maneəsiz fəaliyyətinə imkan yaranmışdı. Buna qədər isə mətbuat qadağa və repressiyalardan keçmiş, senzura nəzarətinə dözməli olmuş, bəzən isə “icazə verilən hədd” azad və sərbəst fəaliyyət göstərmişdi. Lakin tarixin müxtəlif dövrlərində insanlar doğru, ədalətli və cəsarətli sözə ciddi ehtiyac duyublar. Uzun illər, əsrlər boyu sözü açıq və sərbəst formada söyləmək çətin, qorxulu, bəzən isə qeyri-mümkün olub.

Azərbaycanın siyasi həyatında sözün azadlığı uğrunda mübarizələr müxtəlif tarixi mərhələlərdən keçib. Mətbuat və onun əsas silahı olan söz də, azad düşüncə də həqiqi azadlığa yalnız 20-ci əsrin sonlarında qovuşdu. Azərbaycanın, xalqın azadlıq savaşında cəmiyyətin bütün zümrələrini səfərbər edib mübarizəyə qaldıran ilklər də elə söz fədailəri idilər.

Bu gün Azərbaycan mətbuat azadlığının təmin olunması üçün üzərinə düşən bütün vəzifələri yerinə yetirir. İnternet mediasının inkişafı və sosial şəbəkələrin genişlənməsi qlobal şəbəkənin insanlara verdiyi yeni imkanlardır. Bu mənada demokratik inkişaf yolunu seçən ölkəmizdə söz və məlumat azadlığına heç bir halda məhdudiyyət yoxdur. O cümlədən internet azaddır və ondan hansısa formada istifadəyə heç bir qadağa mümkün deyil.

**Dünya standartlarına cavab verən media formalaşıb**

Mövzu barədə “Yeni Azərbaycan”a danışan millət vəkili Ceyhun Məmmədov bildirib ki, Azərbaycanda fikir, söz və məlumat azadlığı ən yüksək səviyyədə təmin olunur. Onun sözlərinə görə, bu gün ölkəmizdə hər kəsin fikrini sərbəst ifadə etmək hüququ var: “Azərbaycan mətbuatında istənilən mövzunu işıqlandırmaq mümkündür. Söz azadlığı baxımından Azərbaycan dünyada və bölgədə qabaqcıl yerləri tutur. Hazırda ölkəmizdəki televiziyalarda, qəzetlərdə və radiolarda bu azadlıq özünü açıq-aydın göstərir. Hər bir məsələ dövlət səviyyəsində tənzimlənir və dövlət bu prosesdə öz fəaliyyətini ən uyğun formada həyata keçirir. İnsanlar fikirlərini sərbəst bildirir, toplaşır və azad şəkildə fikir mübadiləsi aparırlar. Bu da plüralizm və söz azadlığı baxımından Azərbaycanın ön sıralarda olduğunu bir daha sübut edir. Ölkəmiz öz müstəqilliyini bərpa etdikdən sonra həyatın bir çox sahələrində olduğu kimi, mətbuatın inkişafında da dönüş yarandı, siyasi plüralizm və söz azadlığını təmin etmək üçün mühüm işlər həyata keçirildi. Azərbaycan mətbuatının sürətli inkişafı respublikamızda dünya standartlarına cavab verən müstəqil kütləvi informasiya vasitələrinin yaranmasına gətirib çıxardı. Sevindirici haldır ki, bu gün Azərbaycanda müasir dünya standartlarına cavab verən müstəqil media formalaşmaqdadır. 1998-ci ildə Heydər Əliyev tərəfindən mətbuat üzərində dövlət tənzimlənməsini nəzərdə tutan bütün mexanizmlər, o cümlədən senzura aradan qaldırıldı. Azərbaycan mətbuatının dövlət nəşriyyatına olan borcları əvvəlcə üç il müddətində dondurulub, sonra isə ləğv olundu. Hazırda bu məqsədyönlü işlər Heydər Əliyev siyasətinin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Bu gün qəzet, jurnal, informasiya agentliyinin təsis edilməsi üçün münbit şərait var”.



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**

**Qanunvericilik kifayət qədər mükəmməldir...**

Millət vəkili qeyd edib ki, medianın fəaliyyət göstərməsi üçün Azərbaycanda heç bir əngəl yoxdur: “Bu məsələyə bir neçə aspektdən yanaşmaq lazımdır. Birinci, dövlətin görməli olduğu işlər və real durum, ikinci isə əlbəttə ki, medianın özünün üzərinə düşən vəzifələr. Dövlətə gəlincə, burada qanunvericilik kifayət qədər mükəmməldir. Müəyyən qüsurlar, yaxud da tənqidlər olsa da, dövlət medianın və jurnalistlərin azadlığının yüksək səviyyədə təmin edilməsi üçün bütün şəraiti yaradıb. Azərbaycanda heç kəs iddia edə bilməz ki, biz özümüzü azad şəkildə ifadə etməkdə çətiniklərlə üzləşirik”.

*Yeganə BAYRAMOVA*

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4640
Sifariş: 396
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova